www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 may 2017-ci il Bazar ertəzi № 91 (6705) Qiymәti 60 qәpik

**Xəbər**

## Bakıda vəzifəli şəxs yeyib-içdikdən sonra dostunu öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Nazirlərin Moskva görüşündə müharibə motivi



Hərbi ekspertə görə, belə görüşlər hiyləgər siyasətin tərkib hissəsidir və Azərbaycanı durdurmaq niyyəti güdür...

yazısı səh.9-da

### ADNA terrorundan 8 il ötdü - sifarişçi isə hələ də azadlıqdadır

yazısı səh.5-də

### Azərbaycan iki işğalçı ilə üz-üzə - böyük sülhü əlçatmaz edən tək səbəb

yazısı səh.11-də

### İlin ilk 4 ayının yekunu iqtisadçı alimin şərhində

yazısı səh.6-da

### Türkiyə-Avropa qarşıdurması: qardaş ölkə AŞ PA-dan çıxsa...

yazısı səh.9-da

### Ali məktəblərə bu il üçün ilk qəbul imtahanı keçirildi

yazısı səh.2-də

### Yoqa - ruh, bədən və ağılın birgə olduğu təlim - müxbirimizin reportajı

yazısı səh.14-də

### Bakıda dəbdəbəli başdaşı qoyduranların sayı azalıb

yazısı səh.15-də

### Əsəri "Ginnesin rekordlar kitabı"na düşmüş azərbaycanlı rəssam danışdı...

yazısı səh.12-də

### TV-lərdə evlilik proqramları lazımdırmı? - iki ekspert rəyi

yazısı səh.13-də

## Ortaq təlimlərdən ortaq ordu quruculuğuna doğru

# AZƏRBAYCAN-TÜRKİYƏ MÖHTƏŞƏM TƏLİMLƏRİ BAŞLADI: DÜŞMƏNƏ GÖRK, HAVADARINA İSMARIŞ

5 günlük hərbi təlimlərində türk hərbçiləri işğalçı qüvvələrə ən yaxın məsafədə manevrlər edəcəklər; **ortaq təlimlərdən Rusiyaya çatan əsas mesaj:** Moskva Azərbaycanla Türkiyəni həmişəlik itirə bilər, əgər...




yazısı səh.8-də

## Qardaşı ilə şantaj olunan MTN zabitinin müəmmalı intiharının yeni təfərrüatları

Antiterror mərkəzinin sabiq rəisi Elçin Quliyev və əməkdaşı İlqar Əliyevin təhqirlərinə məruz qalmasından bezən Malik Mustafayev özünə qəsd edib, qardaşı isə həbsə atılıb...

yazısı səh.4-də




### Şəmkirin icra başçısının düşdüyü qəza sürücünün boynuna qoyuldu

yazısı səh.5-də



*Siyavuş Novruzov:*

### "Bir də görürsən kimsə düşüb ortaya Rəsulzadə haqda iddialar səsləndirir"

yazısı səh.7-də



*Razi Nurullayev:*

### "Xalqın yolunda qazi olmağa hazıram"

yazısı səh.3-də

# 1 may 2017

Alimpaşa Məmmədov



# “NATO Türkiyəsiz zəifləyəcək” - baş katib

**“Türkiyə NATO-nun mühüm iştirakçısıdır”. APA-nın “Anadolu”ya istinadən verdiyi xəbərə görə, bu barədə NATO-nun baş katibi Yens Stoltenberq Almaniyanın “Welt am Sonntag” nəşrinə müsahibəsində bildirib.**

Onun sözlərinə görə, Ankara NATO-nun Əfqanıstan, Kosovo və digər ölkələrdəki missiyalarına mühüm töhfə verir. “Şübhəsiz ki, NATO Türkiyəsiz zəif olacaq. Türkiyə bir çox səbəblərə görə NATO-nun mühüm müttəfiqidir”, - deyə NATO-nun baş katibi qeyd edib.

O qeyd edib ki, bu, əsasən Türkiyənin coğrafi yerləşməsi və hərbi potensialı ilə əlaqədardır. Bu, İŞİD-lə mübarizədə böyük əhəmiyyət kəsb edir. “Türkiyə toqquşmaların və qarşıdurmanın davam etdiyi İraq və Suriya ilə həmsərhəddir. Bundan başqa, onun NATO üçün strateji olan Qara Dəniz regionu ilə sərhədi var. Bu, Rusiya ilə münasibətlər üçün böyük əhəmiyyət kəsb edir” - Yens Stoltenberq qeyd edib.

Stoltenberq onu da qeyd edib ki, Türkiyə Avropa və NATO-nun təhlükəsizliyi üçün əsas ölkələrdən biridir. NATO baş katibi Türkiyənin siyasətini tənqid edən Qərb ölkələrini qarşılıqlı hörmət nümayiş etdirməyə, sakitliyi qorumağa və müttəfiqə düşünülmüş münasibət göstərməyə çağırıb.



# Dünyanın intizarla gözlədiyi döyüş baş tutdu - Kliçko məğlub oldu

**Ukrayna təmsilçisi Vitali Kliçko Beynəlxalq Boks Federasiyası (İBF) və Dünya Boks Assosiasiyası versiyaları üzrə superağır çəkidə dünya çempionu titullarını geri qaytara bilməyib. Report xəbər verir ki, o, Londonun “Uembli” stadionunda keçirilən döyüşdə britaniyalı Entoni Coşuaya məğlub olub.**

Belə ki, Vitali Kliçko 11-ci raundda rəqibinə texniki nokautla yenilib. Qeyd edək ki, Kliçkonun 41, rəqibi Coşuanın isə 27 yaşı var. 27 yaşlı Coşua bununla IBF versiyası üzrə çempionluq tituluna 3-cü dəfə yiyələnib. O, professional rinqdə 19 qələbə ilə məğlubiyyət tanımır. Coşua bu qalibiyyətlərin hamısını nokautla əldə edib. Kliçko isə 64 dəfə qələbə qazanıb. O, qələbələrindən 53-nü nokautla başa çatdırıb. Gərgin keçən qarşılaşmanı 90 minə yaxın boks həvəskarı izləyib. Bu, stadionun kassa rekordudur. Xatırladaq ki, stadionda bundan əvvəlki rekord 2014-cü ildə, britaniyalı Karl Froçe ilə Corc Qrouvzun döyüşündə qeydə alınıb - 77 min tamaşaçı.

# Bu gün Bakıda mülayim hava olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, səhər bəzi yerlərdə zəif duman olacaq, şimal-şərq küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun gecə 9-12° isti, gündüz 20-25° isti, Bakıda gecə 9-11° isti, gündüz 22-24° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan yüksək 763 mm civə sütunu, nisbi rütubət gecə 70-80 %, gündüz 55-65 % təşkil edəcək.

Azərbaycanın rayonlarına gəlincə, mayın 1-də hava şəraiti əsasən yağmursuz, gecə və səhər bəzi yerlərdə duman olacaq. Lakin günün birinci yarısında bəzi qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13° isti, gündüz 23-28° isti, dağlarda gecə 1-6° isti, gündüz 12-17° isti olacağı gözlənilir.

# ADNSU-da 30 aprel terror qurbanlarının xatirəsi anıldı

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) 30 aprel terror qurbanlarının xatirəsinə həsr olunmuş tədbir keçirilib. Report xəbər verir ki, universitetin professor-müəllim heyəti, tələbələr, terror qurbanlarının yaxınlarının iştirak etdiyi anım mərasimi faciə qurbanlarının xatirəsinə qoyulmuş barelyefin önündə başlayıb.**




Terror qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edən tədbir iştirakçıları barelyefin önünə gül dəstələri düzüblər. ADNSU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə keçirilən rəsm sərgisində tələbələrin faciə haqqında çəkdiyi rəsmlər nümayiş olunub. Sonra universitetin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə ADNSU tələbələrinin 30 aprel haqqında hazırladığı qısa film təqdim olunub.

30 aprel hadisələrinin hər kəsin qəlbində dərin iz buraxdığını deyən ADNSU-nun rektoru, professor Mustafa Babanlı hadisə qurbanlarının xatirəsinin daim əziz tutulacağını bildirib. Terrordan heç bir dövlətin sığortalanmadığını söyləyən rektor M.Babanlı belə bir hadisənin bir daha baş verməyəcəyinə inandığını qeyd edib: “Həmin gün həlak olan dinc insanlar həmişə Azərbaycanı güclü görməyi arzulayıblar. Biz də universitet olaraq əlimizdən gələni edib ölkəmizin inkişafına töhfəmizi verərək onların ruhu qarşısında öz borcumuzu yerinə yetirməliyik”.

Sonra tədbir iştirakçıları faciə qurbanları haqqında xatirələrini bölüşüblər.

# II və III ixtisas qrupları üzrə ali məktəblərə qəbul imtahanı keçirildi

**Dünən Dövlət İmtahan Mərkəzi (DİM) 2017/2018-ci tədris ili üçün Azərbaycanın ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.**



Mərkəzdən Trend-ə verilən məlumata görə, imtahan respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə 66 binada aparılıb. İmtahanların idarə olunmasına 237 imtahan rəhbəri və orta ümumtəhsil müəssisələrindən 2637 nəzarətçi-müəllim cəlb olunub.

İmtahanda 35433 abituriyentin iştirakı nəzərdə tutulurdu. Onlardan 18681 abituriyent II qrup üzrə, 16752 abituriyent III qrup üzrə imtahan verib. Abituriyentlərdən 32089 nəfəri Azərbaycan bölməsinin (II qrup üzrə 16612, III qrup üzrə 15477 nəfər), 3344 nəfəri isə rus bölməsinin (II qrup üzrə 2069, III qrup üzrə 1275 nəfər) məzunudur. Abituriyentlərin 16233 nəfəri oğlanlar (II qrup üzrə 11687 nəfər, III qrup üzrə 4546 nəfər), 19200 nəfəri isə qızlardır (II qrup üzrə 6994 nəfər, III qrup üzrə 12206 nəfər). 26778 nəfər cari ilin orta ümumtəhsil məktəblərinin, 8655 nəfər əvvəlki illərin məzunlarıdır (buraya ali və ya orta ixtisas təhsili olanlar da daxildir). 49 nəfər ali təhsil müəssisələrinin, 1342 nəfər isə orta ixtisas təhsili müəssisələrinin məzunudur. 177 abituriyent xarici ölkələrin vətəndaşıdır. Ən yaşlı abituriyent 1961-ci ildən, ən gənci isə 2002-ci ildəndir.

Bakı şəhərində 15617, Naxçıvanda 1618, Gəncədə 3746, Sumqayıtda 1678, Mingəçevirdə 1471, Şəkidə 2064, Bərdədə 2313, Göyçayda 1401, Şirvanda 1697, Lənkəranda 2376, Xaçmazda isə 1452 abituriyent imtahan verib.

İmtahan 3 saat davam edib. İmtahan başa çatdıqdan dərhal sonra müstəqil ekspertlər tərəfindən test suallarının ekspertizası aparılacaq. İmtahanda istifadə olunmuş sualların düzgün cavabları, eyni zamanda, DİM-in internet saytında və Facebook səhifəsində yerləşdiriləcək. Abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri imtahandan 3-4 gün sonra DİM-in internet saytında yerləşdiriləcək.


**“Qaya Mətbuat Yayımı” MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Gürcüstan əhalisinin sayı azalır

**Keçən il Gürcüstan əhalisinin sayında azalma qeydə alınıb. Reportun Gürcüstan bürosu xəbər verir ki, bu barədə ölkənin Milli Statistika Xidməti məlumat yayıb. Məlumatda deyilir ki, əhalinin sayı 2017-ci il yanvarın 1-də 3 milyon 718,2 min nəfər olub. Bu da 2016-ci il 1 yanvar tarixi ilə müqayisədə 0,1 faiz azdır.**

Hesabat dövründə əhalinin ümumi sayında kişilərin sayı 0,1 faiz artıb, qadınların sayı isə 0,2 faiz azalıb. Bununla belə qadınlar ümumi əhalinin 52,1 faizini təşkil edir. Əhalinin 57,2 faizi şəhərlərdə, 42,8 faizi isə kəndlərdə yaşayıb. Ekspertlərin fikrincə, əhalinin sayının azalması gənclərin ailə qurmağa meyilli olmaması, boşanmaların sayının artması və insanların iş dalınca başqa ölkələrə köçməsi ilə əlaqədardır.

Sosioloq Keti Kobiaşvilinin sözlərinə görə, Gürcüstan əhalisinin sayında azalma bir az da artacaq. Avropa ölkələrinə viza sisteminin sadələşdirilməsi əmək qabiliyyətli insanların emiqrasiyasını sürətləndirəcək. İş arxasınca xaricə gedənlərin bir çoxu geriyə qayıtmaq istəmirlər.

# Bakıda bədii gimnastika üzrə Dünya Kubokunun final yarışlarına start verilib

**Dünən Bakıda bədii gimnastika üzrə FIG Dünya Kubokunda final yarışlarına start verilib. Trend-in məlumatına görə, yarışlar Milli Gimnastika Arenasında keçirilir. Turnirin üçüncü-sonuncu günündə fərdi gimnastların halqa, top, gürzlər və lentlə, eləcə də qrup komandalarının 5 halqa, 3 top və 2 iplə hərəkətlər üzrə final yarışları keçiriləcək.**

Qeyd edək ki, aprelin 28-də Bakıda bədii gimnastika üzrə FIG Dünya Kuboku yarışlarına start verilib. Aprelin 30-dək davam edəcək yarışlara 21 ölkədən 94 gimnast qatılıb. Onlardan 34 nəfəri fərdi proqramda, 58 nəfəri isə ümumilikdə 10 qrup hərəkətləri komandasının tərkibində çıxış edir. Ölkəmizi bu turnirdə yeniyetmələr proqramında Avropa çempionatının gümüş və bürünc medalçısı Jalə Piriyeva, istedadlı gimnast Zöhrə Ağamirzəyeva, həmçinin Avropa çempionatının qrup hərəkətləri komandasının tərkibində gümüş medalçıları Siyana Vasileva, Diana Doman, Aleksandra Platonova, Ayşən Bayramova və Elif Zeynep Celep təmsil edirlər.

**Yeni Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Razi Nurullayev dünən ölkə gəncliyi ilə görüş keçirib. ADP qərargahında təşkil olunan görüşə yüzlərlə gənc qatılıb.**

# Razi Nurullayev ölkə gənclərini bir araya topladı

## “Xalqın qarşısında getməyə, bu yolda qazi olmağa hazırıq”





Tədbiri giriş sözü ilə partiyanın Gənclər Komitəsinin sədri Təbriz Mirzəyev açıb. İştirakçıları salamlayan partiya sədri 7 il öncə baş verən ADNA qurbanlarını və bir il öncə həlak olmuş əsgərlərimizi bir dəqiqəlik sükutla yad etməyi xahiş etdi.

Ardınca çıxışını o, M.Ə.Rəsulzadənin gəncliyə olan xitabı ilə davam edib: “Torpaqlarımız və müstəqillik uğrunda minlərlə şəhid vermişik, onlardan ən böyüyü də Əbülfəz Elçibəydir. Biz də bu yola çıxmışıq. Bu gün bizim üçün ən böyük öndərlər Rəsulzadə və Elçibəydir. Bu iki şəxsin üzərində dayanacam. Rəsulzadə sərhədləri bəlli olan dövlət qoyub gedib, parlament binasına bayrağımızı Əbülfəz Elçibəy taxıb. Əbülfəz Elçibəy Bütöv Azərbaycan ideyasını qoydu. Müstəqillik uğrunda 20% torpağımızı itirdik. Ona görə ki, siyasətimizdə fırıldaqçılar yer aldı. Biz onlara qarşıyıq. Bizə birlik lazımdır. Fitnəkarlığa yol vermək olmaz. Bizə Azərbaycanın taleyini lazımdır. Siyasətçilərə də əsas bu lazımdır. Azərbaycan siyasətçisi xalqla birlikdə olmalıdır. Biz xalqın qarşısında getməyə, bu yolda qazi olmağa hazırıq. Bəzən Rəsulzadə və Elçibəy haqqında xoşagəlməyən fikirlər səsləndirilir. Əbülfəz Elçibəy MDB məkanında ilk əlaqəni Rusiya ilə qurmuşdu. Hər iki şəxsiyyətə şər atanlar bu xalqın düşmənləridir. Biz bir olsaq, xalqımız da firavan həyata çatacaq. Bizə dərs keçənlər bu gün mənəviyyatı olmayan insanlardır. Müxalifət liderləri xalqın meydana gəlmədiyini deyirlər. Yalandır, bu xalq milli-azadlıq hərəkatı ilə müstəqilliyini qazanan xalqdır. SSRİ kimi imperiyanın sonunu da bu xalq gətirdi. Bu xalq sadəcə, ənənəvi liderlərə inanmır. Bu gün millətin hamısı işsizdir. Bugünkü vəziyyətlə barışmıram. Ola bilər ki, insanlar polisdən çəkinsinlər, müəllimlər saxtakarlığa yol versinlər, pulla gəlib ölkədə hakimiyyəti tərifsinlər. Nemət Pənahlı kimi savadsız, diplomunu pulla alan biri Elçibəyi necə kabinetdən qova bilər? Amma deyir ki, onu qovdum kabinetimdən. Necə qova bilərdi? Araz və Zərdüşt Əlizadə qardaşları xalqı aşağılayır. Bizi millətçilikdə ittiham edirlər. Bu xalq cəza verməyi də haqq edir. Güzəşt olmamalıdır, bu xalqı bu günə salanlar cəzalarını almalıdırlar”.

R.Nurullayev Ramiz Rövşənin Ə.Elçibəy haqqında yazdığı şeiri oxuması zalda alqışlarla qarşılandı. AXCP sədri çıxışına bu cür davam etdi: “Ramiz Rövşənin qeyd etdiyi daş yenə atılır bizlərə. O daşlar özlərinin başına atılacaq. Buradakı gənclərin cibini silkələsək, 300-400 manat çıxmaz. Budur Azərbaycan gəncliyi? Əgər gəncliyimiz sevdiyi xanıma bir çay almağa imkan etmirsə, o gənclikdən nə gözləmək olar? Amma varlıların övladları əsgərlikdən yayındırılır, xaricdə oxumağa göndərilir. Əsgər olanlara baxırıq, hamısı kasıb övladlarıdır. Biz bununla barışa bilmərik. Əgər bir gəncin gələcəyinə ümidi yoxdursa, bu günü də yoxdur. Gələcəkdə şəhid gənclərimiz olacaq. Niyə onların yaşamağa yerləri olmasın? Milyardlarla vəsait xərclədiyimiz qaz layihələri var, amma bu qış xalq qazdan nə əziyyət çəkdi, hamıya bəllidir. Bu xalq bütün problemləri ilə savaşır. Çoxsaylı insanlar olub ki, kasıb olduqlarından müalicə ala bilməyiblər, həyatlarını itiriblər, yaxud yaxınları rəhmətə gediblər. Kimdən soruşsam bu dəqiqə, hər kəsin krediti var, yaxud ailəsinin. Bu xalq bankların əsiri olub. Sizlər xaricə yığdığınız milyardları sərf etsəniz, xalqın banklara borcları bitər. Dolların məzənnəsinin tez-tez dəyişməsi ilə yüzlərlə insan varlı oldu, milyonlar itirdi. Varlanan isə kimlərdir, hamımız yaxşı bilirik. Biz hakimiyyəti üsyanla təhdid etmirik, dinc savaşın tərəfdarıyıq. Şans verildi bu hakimiyyətə. Dəyərləndirmədilər, artıq güzəşt edilməyəcək. Biz tək hakimiyyətlə deyil, içəridən müxalifəti parçalayanlarla mübarizə aparırıq... Kimsə gəlib desə ki, Razi Nurullayevi prezident edirik, amma ermənilərlə razılaş, Qarabağı ver, yaxud başqa şərtləri qəbul et. Mən bununla razılaşmaram, mənim üçün əsas xalqımdır. Ölkəmizdə yeni siyasətçilər vacibdir. Ənənəvi siyasətçilər artıq son dövrlərini yaşayırlar. Artıq yeni simalar siyasətə gəliblər. Biz yüz minləri meydana toplamağlı bacarmalıyıq”.

R.Nurullayev 2018-ci ilin seçkilərindən də danışdı: “Gələn ili dəyişikliklər ili elan etmişik. Artıq dəyişmək zamanıdır. Bu hakimiyyəti istefaya göndərməliyik. Ənənəvi müxalifət bizimlə olacaqsa, varıq, olmayacaqlar ehtiyacımız yoxdur. Əziz gənclər, mən sizinlə fəxr duydum, məni sakit dinlədiniz. Hamınıza xoşbəxt dolu gələcək arzulayıram. Birlikdə olaq, xalqımıza layiq olduğu həyatı verək”.

Daha sonra Gənclər Komitəsinin sədri T.Mirzəyev partiya olaraq gənclər siyasətindən danışdı. Daha sonra söz AXCP sədrinin müavini Ehtiram Mehtiyevə verildi: “Bu qədər gənclin qarşısında çıxış edəndə həyəcanlanmamaq olmur. Hamınıza təşəkkür edirəm, insan sadəcə, qürur duyur. Təəssüflər olsun ki, hakimiyyət bu gənclikdən istifadə edə bilmir, onu işsizliyə düçar edir. Hər birinizi partiyamızın sıralarında birləşməyə çağırıram”.

Partiyanın Lənkəran şöbəsinin rəhbəri Əli Əhmədov, Şirvan şöbəsinin sədri, gənc İsmayıl İsabalaoğlu da öz fikirlərin bildirdilər. Sonda AXCP sədri bunları dedi:"Biz bu gün gördük ki, gənclik nə istəyir. Hamımızın qəlbi bu vətən üçün döyünür. İçərimizdə narazılıq var, bundan çıxış yolu da var. Gənclik həyatını xaricdə görməməlidir yaxud mitinqlərdə şəkil çəkdirib onunla xaricdə oturum almaq məqsədi olmamalıdır. Bütün hədəflərimiz gələn ilə yönəlib. Gəlin bu iqtidarı birlikdə istefaya göndərək. Bu gün sıralarımıza qoşulun, dostlarınıza anladın. Sizləri mübarizəyə səsləyirəm".

Tədbir “Koroğlu” üverturası ilə yekunlaşdı.

❑ **Cavanşir ABBASLI**
❑ **Fotolar Məhəmməd Türkmənindir.**

# Avropa ilə gərginlik Türkiyə-Rusiya ittifaqını möhkəmlədəcək?

## Politoloq: “Türkiyə çox məsuliyyətli və gərgin bir dövrdən keçir...”

**Son zamanlar Türkiyə ilə Avropa arasında ciddi gərginlik yaşanır. Ekspertlər hesab edirlər ki, Ankara Avropadan uzaqlaşdıqca, tarixdə olduğu kimi Rusiya ilə yaxınlaşa bilər. Türkiyə kimi gücün isə nə demək olduğunu elə Avropa dövlətlərinin özləri də yaxşı dərk edirlər.**



Belə ki, Almaniyanın xarici işlər naziri Ziqmar Qabriyel bildirib ki, Türkiyənin Avropa Birliyinə üzv olması ilə bağlı danışıqlar prosesinin dayandırılmasının tərəfdarı deyil: “Türkiyə qonşuluqda yerləşən böyük bir dövlətdir. Hərbi münaqişə vaxtı belə Türkiyəni kənara itələmədik. Bəs indi niyə bu ölkəni Rusiyaya tərəf yönləndirməyə çalışırıq? İlkin mərhələdə diplomatik danışıqlar davam etməlidir” - Qabriyel bildirib.

Mövzu ilə bağlı danışan **politoloq Qabil Hüseynli** isə hesab edir ki, proseslər Türkiyəni Rusiyaya yaxınlaşdıra bilməz: “Çünki Türkiyə Avropa dövlətidir. Eyni zamanda Türkiyənin bugünkü vəziyyətə gəlməsində Avropa dəyərlərinin və Atatürkün Avropa mədəniyyəti və dəyərlərini ölçüyə gətirməsi böyük rol oynayıb. Türkiyədə bu gün iqtisadiyyatın inkişafında da Avropa dövlətlərinin rolu böyükdür. Hazırda Türkiyə iqtisadiyyatında istehsal edilən məhsulların çoxu, Almaniyanın özəl sektorda olan sənaye müəssisələrinin verdiyi lisenziya əsasında yaradılıb. Məsələn, ”Bosh” firmasını göstərə bilərik. Eyni zamanda Türkiyənin Fransa ilə də ciddi iqtisadi əlaqələri var. Bu əlaqələr daha çox hərb sahəsini əhatə edir. Həmçinin bu qəbildən Amerikanın da adını çəkə bilərik. Məsələn, “F-16” tipli təyyarələr və xüsusilə də onların mühərrikləri Amerikanın lisenziyası əsasında Türkiyədə yığılırdı. Son zamanlar isə hətta təyyarənin mühərrikləri Türkiyədə istehsal edilməyə başladı. Bu misalları çəkməklə demək istəyirəm ki, Türkiyə adambaşına ümummilli məhsul istehsalına görə, 11 min dollarla dünyanın qabaqcıl ölkələri sırasına çıxıbsa, buna, Türkiyənin Avropa və Amerika ilə əlaqələri mühüm rol oynayıb. Rusiya isə bu gün adicə tərəvəzin ölkə daxilinə keçirilməsi üçün ağır şərtlər qoyur. Hələ də Türkiyədən rus bazarlarına normal miqdarda rusların özləri üçün əhəmiyyətli olan kənd təsərrüfatı məhsullarının ixracını qaydaya salmaq mümkün olmayıb. Çox təəccüblənirəm ki, bəzən Avropanın insan haqları ilə bağlı tənqidi Türkiyədə hiddətlə qarşılanır. Buna cavab isə çox emosional verilir. Halbuki, bu gün Almaniyada 4 milyona qədər türk çox yüksək səviyyədə yaşayır. Onlar Almaniya iqtisadiyyatına böyük töhfələr verirlər. Eyni sözləri Hollandiya, Fransa iqtisadiyyatı üçün də söyləmək olar”.

Politoloqa görə, belə şərtlər daxilində Türkiyə ilə normal qonşuluq siyasətinin inkişaf etdirilməsinə heç kim qarşı çıxa bilməz: “Avropa Birliyi, NATO ilə əlaqələri kəsib Rusiya ilə əlaqələr qurmaq, türk xalqının arzusu ola bilməz. Tarix də bizə ibrət dərsi çıxarmaq üçün saysız-hesabsız faktlar verir. Məncə, Ərdoğan xarici siyasət sahəsində müəyyən emosionallığa yol verir, bəzi dövlətlərlə münasibətləri sanki süni sürətdə gərginləşdirir. Türkiyə indiyədək nəyə nail olubsa, NATO daxilində nail olub. Vaxtilə Stalinin göstərişi ilə ruslar Türkiyəni 16-cı müttəfiq respublikaya çevirmək istəyirdilər. Yeni Türkiyəni tamamilə ilhaq etməyi düşünürdülər. Yalnız Türkiyənin tələsik NATO-ya qəbul edilməsi Stalinin bu cür avantürist qərarını həyata keçirməyə imkan vermədi. İndi belə bir şərtlər daxilində ”ruslar bizə atom elektrik stansiyası tikəcək", "hava hücumundan müdafiəni rusların köməkliyi ilə quracağıq” kimi fikirlər səsləndirmək, zənnimcə düzgün hesablanmış siyasət deyil. Çünki Amerika və Avropada Ukrayna, Gürcüstan, Suriya hadisələrindən sonra Rusiyaya qarşı münasibət çox ciddi şəkildə dəyişib. Yeni dünya düzəninə düzəliş etmək istəyən Rusiyanı Avropa və Qərb dünyası yerində oturtmağa çalışır. Bunun üçün də müxtəlif üsullardan istifadə edirlər. Belə bir şəraitdə dünya düzəninə cavabdeh olan ölkələrin sırasını tərk edib əzələ nümayişi ilə məşğul olan dövlətin tərəfindən dayanmaq, düşünürəm ki, o qədər də praqmatik siyasət sayıla bilməz. Türkiyə Rusiyaya doğru irəlilədikcə, yaxınlığında Kürdüstan dövlətinin yaradılması ideyasını reallaşdırmağa başlayıblar. “İncirlik”dən çıxarılma kimi təhdidlərin müqabilində türklərin yaşadıqları bölgədə Amerika yeni hərbi hava bazası yaradır. Demək istəyirəm ki, xarici siyasətdə dəyişən reallıqlar nəzərə alınmalı olsa da, siyasətin məğzində sabitqədəmlilik əsas dəyərə çevrilməlidir. Yalnız bu cür şəraitdə həm dövlətin nüfuzunu qoruyub saxlamaq olar, həm də dövlət üçün lazım olan təhlükəsizlik mühiti yaratmaq mümkündür. Bir sözlə, Türkiyə hazırda çox məsuliyyətli və gərgin dövrdən keçir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017



## Baytarlıq Xidməti: “Daşkəsəndə fabrikdə aşkar olunan ətlər ölmüş at ətləridir”

### Bu ətlərin insan sağlamlığına zərər yetirən bakteriyalarla çirkləndiyi aşkarlanıb

**Apelin 26-da Daşkəsən Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən sürücü Əliyev Nafiq Rüstəm oğlunun idarə etdiyi “Hundai” markalı 99-KV-790 dövlət nömrə nişanlı yük avtomobilinə Daşkəsən-Gəncə avtomobil yolunda baxış keçirilib.**

Baxış zamanı avtomobilin yük yerində mənşəyinə və sağlamlığına dair heç bir sənədi olmayan 50 qutuda (hər biri 20 kq) 1000 kiloqram sümükdən ayrılmış, karton qutulara qablaşdırılmış və dondurulmuş mənşəyi məlum olmayan heyvan ətləri aşkar edilib. Report xəbər verir ki, bu barədə Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin məlumat yayıb.

Daşkəsən Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən saxlanılmış avtomobilin yük yerində aşkarlanmış mənşəyi məlum olmayan heyvan ətlərinin Daşkəsən rayonu Quşçu qəsəbəsinin inzibati ərazisində yerləşən, Elçin Rüstəmovun rəhbərlik etdiyi “Elba” MMC-yə məxsus heyvan kəsimi və emalı fabrikində yükləndiyi məlum olub və müəssisəyə baxış keçirilib. Baxış zamanı fabrikin 1 nömrəli kamerasında hər biri 20 kiloqram olmaqla 260 qutu, hər biri 40 kiloqram olmaqla 12 qutu, ümumilikdə 5680 kiloqram sümükdən ayrılmış karton qutulara qablaşdırılmış, dondurulmuş, mənşəyinə və sağlamlığına dair heç bir sənədi olmayan heyvan ətləri, həmçinin hər biri 6 kiloqram olmaqla 60 ədəd polietilen paketə qablaşdırılmış, mənşəyi bilinməyən, ümumi çəkisi 360 kiloqram olan heyvanın iç piyi, 2 baş iribuynuzlu heyvanın başı, dərisi, ayaqları aşkarlanıb. Eyni zamanda “Elba” MMC-yə məxsus 2 nömrəli soyuducu kamerada 2 baş iribuynuzlu heyvanın başı, dərisi, ayaqları və daxili orqanları aşkar olunub.

Daşkəsən Rayon Polis Şöbəsinin müraciəti əsasında Daşkəsən Rayon Baytarlıq İdarəsinin əməkdaşları Əliyev Natiq Rüstəm oğlunun idarə etdiyi “Hundai” markalı 99-KV-790 dövlət nömrə nişanlı yük avtomobilindən və Daşkəsən rayonu Quşçu qəsəbəsinin inzibati ərazisində yerləşən, “Elba” MMC-yə məxsus kəsim və emalı fabrikində aşkarlanan mənşəyi məlum olmayan, sağlamlığına dair heç bir sənədi olmayan sümüksüz ətlərdən nümunələr götürərək Respublika Baytarlıq Laboratoriyasına göndəriblər.

Laboratoriyada müayinələrin nəticəsinə əsasən Əliyev Nafiq Rüstəm oğlunun idarə etdiyi “Hundai” markalı 99-KV-790 dövlət nömrə nişanlı yük avtomobilində aşkar edilən ətlərdən götürülən nümunələrin hamısının ölmüş və ya aqoniya vəziyyətində kəsilmiş at ətlərinin olması müəyyən edilib. Həmçinin həmin ətlərin insan sağlamlığına, səhhətinə zərər yetirən bakteriyalarla çirkləndiyi məlum olub. Ekspertizaların nəticələri müvafiq araşdırmalar aparan Daşkəsən Rayon Polis Şöbəsinə göndərilib.

Həmçinin “Elba” MMC-yə məxsus kəsim və emal fabrikinin soyuducu kameralarında aşkar olunan ətlərdən götürülən nümunələrin beşinin ölmüş və ya aqoniya vəziyyətində kəsilmiş at ətləri olması, digər nümunələrin isə aqoniya vəziyyətində kəsilmiş iribuynuzlu heyvan ətlərinin olması müəyyən edilib. Həm at ətinin, həm də iribuynuzlu heyvan ətlərinin insan sağlamlığına, səhhətinə zərər yetirən bakteriyalarla çirkləndiyi məlum olub.

Respublika Baytarlıq Laboratoriyasının müvafiq ekspertizalarının nəticəsi nəzərə alınaraq insan səhhətinə ağır zərər yetirən, bakterioloji çirklənməyə məruz qalan, aqoniya vəziyyətində və ya öldükdən sonra kəsilmiş, heyvan ətləri (at və iribuynuzlu heyvan ətləri) barədə qanunvericiliyə uyğun tədbir görüləcək

**Ləğv edilmiş MTN-in zabitinin 2014-cü ildəki intiharının yeni təfərrüatları məlum olub. Hazırda həbsdə olan MTN generalı Elçin Quliyevin cinayət işi üzrə istintaq materiallarından aydın olur ki, mərhum MTN zabiti Malik Mustafayevin intihar etmə səbəbi qardaşına və özünə qarşı edilən təzyiqlər olub. Elə bu təzyiqləri də ona öz iş yoldaşları edib.**

# Qardaşı ilə şantaj olunan MTN zabitinin müəmmalı intiharının yeni təfərrüatları

### Antiterror mərkəzinin sabiq rəisi **Elçin Quliyev** və əməkdaşı İlqar Əliyevin təhqirlərinə məruz qalmasından bezən Malik Mustafayev özünə qəsd edib, qardaşı isə həbsə atılıb...

Musavat.com-un əldə etdiyi məlumata görə, ləğv edilmiş MTN-in Situasiya Mərkəzinin rəis müavini vəzifəsində işləmiş Malik Mustafayevin intihar etməsi və onun qardaşına təzyiqlər edilməsi ilə bağlı həbsdə olan MTN-in Antiterror Mərkəzinin rəisi olmuş general-mayor Elçin Quliyev istintaq zamanı dindirilib.

Əvvəlcə qeyd edək ki, Malik Mustafayev 2014-cü ildə işdən çıxarıldıqdan bir müddət sonra intihar etmişdi. Onun qardaşı Mətləb Mustafayev qanunsuz silah saxlamaqda təqsirli bilinərək həbs edilmişdi. O, Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz silah daşıma) maddəsi ilə təqsirli bilinərək 2 il müddətinə azadlıqdan məhrum edilmişdi. MTN ləğv edildikdən sonra - 2016-cı ilin sonlarında azadlığa buraxıldı.

Həbsdə olan MTN generalı Elçin Quliyev barəsində açılmış cinayət işi materiallarından aydın olur ki, intihar edən MTN polkovniki Mustafayev nümunəvi xidmətlərinə görə dəfələrlə həvəsləndirmə qaydasında mükafatlandırılıb, dövlət təltiflərinə layiq görülüb.

İstintaq materiallarında qeyd edilir ki, general Elçin Quliyev Malik Mustafayevi 6 sentyabr 2014-cü ildə xidməti otağına çağıraraq 4 saata yaxın onunla söhbət edib.

Elçin Quliyev M.Mustafayevə qardaşının əməllərindən şikayət edib. General bildirib ki, qardaşı Mətləb Mustafayev əvvəllər işlədiyi Əmlak Məsələləri Dövlət Komitəsinin Bakı şəhəri üzrə 2 saylı ərazi şöbəsinin baş məsləhətçisi vəzifəsindən azad edildikdən sonra müxtəlif dövlət orqanlarına və kütləvi informasiya vasitələrinə şikayət məktubları ünvanlayaraq müxtəlif vəzifəli şəxslər haqda şikayətlər edir.

Malik Mustafayev isə qardaşının şikayət ərizəsi yazmasından xəbərsiz olduğunu deyib. Bundan sonra Elçin Quliyev Malik Mustafayevə təklif edib ki, qardaşı Mətləb Mustafayev dövlət orqanlarında yüksək vəzifə tutan və sahibkarlıqla məşğul olan ayrı-ayrı şəxslərin xidməti və sosial mövqelərinə uyğun olmayan fəaliyyətlə məşğul olmaları, konkret cinayət əməlləri törətmələrinə dair həqiqətə uyğun olmayan məlumat versin.



Bundan əlavə Elçin Quliyev şikayət ərizəsi, araşdırma materialı, siqnal işi olmadığı halda işçisi İlqar Əliyev (həbsxanada intihar edib) vasitəsi ilə Mətləb Mustafayevin özünü də MTN-ə çağırtdırıb.

Elçin Quliyev iki qardaşa təzyiqlərini davam etdirərək Mətləb Mustafayevin izahat yazmasını tələb edib və əks halda onlara psixi təsir göstərəcəyini, qardaşı Malik Mustafayevi də xidmətdən xaric etdirəcəyini deyib.

İstintaqın gəldiyi nəticə belədir ki, Elçin Quliyev hər iki qardaşı cinayətkar adlandırıb, ləyaqətlərini alçaldıb. 13 sentyabr 2014-cü ildə isə polkovnik Malik Mustafayev xidməti vəzifəsindən azad edilib.

Bundan sonra Elçin Quliyev İlqar Əliyevlə birlikdə Malik Mustafayevi yenidən xidməti otağına çağırıb. Malik Mustafayevə qardaşı Mətləbin evindən silah tapıldığını və müəyyən şərtlə ona kömək edə biləcəklərini deyiblər. Bunun müqabilində Mətləb Mustafayev videoçəkilişlər aparmaqla yüksək vəzifəli şəxslər barədə yanlış ifadələr verməli, istintaqın sonrakı mərhələsi, məhkəmə baxışı zamanı bu qərəzli məlumatları təsdiq etməyə razı olmalı idi. Bundan imtina edəcəyi təqdirdə Malik Mustafayevi və qohumlarını həbs edəcəklərini bildiriblər.

Həmin vaxt Elçin Quliyev Malik Mustafayevin qardaşı Mətləblə İlqar Əliyevin xidməti otağında görüşməsini təşkil edib. Malik Mustafayev həmin görüşə qolu qandallı gətirilən Mətləb Mustafayevə özünün də işdən çıxarıldığını bildirib və qardaşından tələb olunan şərtlərlə razılaşmağı xahiş edib. Mətləb Mustafayev isə heç kimə böhtan atmayacağını deyib və təklifi rədd edib.

Elçin Quliyev və İlqar Əliyevin təhqirlərinə məruz qalmasından bezən Malik Mustafayev həmin il noyabrın 3-də yaşadığı Xətai rayonu, H.Aslanov qəsəbəsi, 8-ci dairəvi küçəsi 22 nömrəli qarajın dəmir dirəyindən özünü asıb. Elçin Quliyev və İlqar Əliyev bu əməlləri ilə Malik Mustafayevi özünü öldürmə həddinə çatdırıb.

Bu epizod üzrə təqsirləndirilən şəxs qismində Elçin Quliyev dindirilərkən bildirib ki, Malik Mustafayevi MTN-in Yevlax rayon şöbəsinin rəisi olan vaxtlardan, onun qardaşı Mətləb Mustafayevi isə həbs olunandan sonra tanıyıb: “Malik Mustafayevin sonuncu xidməti vəzifəsi MTN-in Situasiya Mərkəzinin rəis müavini olub. Dəqiq tarixi xatırlamadığım vaxt bir dəfə Mətləb Mustafayevlə söhbət etmişəm. Qardaşının MTN-də hörmətli şəxs olmasını deyərək, mənzilində aşkar olunmuş silahla bağlı məlumat əldə etməyə çalışdım. Bildiyimə görə, Malik Mustafayev də Mətləblə bu barədə söhbət etsə də, o, silahı haradan alması barədə məlumat verməyib. Mətləb Mustafayevlə söhbətimiz zamanı vəkil iştirak etməyib”.

Elçin Quliyevin sözlərinə görə, Mətləb Mustafayevdə silah olması, onun İranda yaşayan Rza, Hüseyn adlı şəxslər və qeyriləri ilə əlaqəsi olması barədə 10 sentyabr 2014-cü ildə MTN-in istintaq idarəsinə məktubla məlumat verib: “Təxminən bir həftədən sonra yenidən əməliyyat məlumatı əsasında Mətləb Mustafayevin qohumlarında silah olması barədə istintaq idarəsinə məlumat vermişəm. Lakin Mətləb Mustafayevin qohumlarının evindəki axtarışlar zamanı silah aşkar olunmayıb. Mətləb Mustafayevin mənzilində axtarış zamanı İlqar Əliyev və əməkdaşlarımızın orada iştirak etməsini təmin etmişəm. Mətləb Mustafayev isə MTN-in istintaq təcridxanasında saxlanılan zaman ola bilərdi ki, antiterror mərkəzinin əməkdaşları ilə söhbət etsin. Mətləb Mustafayevlə əsas işi tapşırığım əsasında İlqar Əliyev qurub”.

Elçin Quliyev ifadəsində Malik və Mətləb Mustafayev qardaşlarını qəbul etməsini, onların görüşməsini inkar etməyib.

Maraqlıdır ki, general biri həbsə düşən, biri isə intihar edən qardaşları qəbul etsə də onlarla ünsiyyətin mövzusunu dəqiq xatırlamadığını deyib: “Mətləb Mustafayevlə həbs ediləndən sonra onunla görüşmüşəm, silahın haradan əldə etməsi ilə bağlı söhbətimiz olub. Mətləb Mustafayevdən evində aşkar olunmuş silahın haradan əldə etməsi ilə maraqlandım. Həmin söhbət zamanı onunla istintaqla bağlı deyil, əməliyyatla bağlı söhbət etdiyim üçün vəkilinin iştirakını təmin etməmişəm”.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 91(6705) 1 may 2017

**Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) törədilən terror hadisəsindən 8 il ötdü. 2009-cu il aprel ayının 30-u səhər saat 09:30-da baş verən terror bütün ölkəni sarsıtdı. ADNA-nın Bakı şəhəri, Dilarə Əliyeva küçəsi, 227 saylı ünvanda yerləşən ikinci korpusuna daxil olan Fərda Qədirov "Makarov" tipli tapançadan istifadə edərək 12 nəfərin həyatına son qoydu. İstintaq materiallarına və şahid ifadələrinə görə, cinayətkar günahsız insanları əsasən baş və boyun nahiyəsindən güllələmişdi.**

# ADNA terrorundan 8 il ötdü - sifarişçi hələ də azadlıqdadır

## Fərda Qədirovun törətdiyi terror aktına görə ağır cəza alanların işini Avropa Məhkəməsi araşdıracaq; 12 nəfərin ölümünə səbəb olmuş müdhiş hadisə üzərindən sirr pərdəsi götürüldümü?..

***Qanlı terror aktının qurbanlarının adını bir daha xatırlayaq.***

**1.** Neft-qaz istehsalı və emalı texnikası kafedrasının müdiri, professor, 1940-cı il təvəllüdlü Ramiz Xəlil oğlu Abdullayev,

**2.** Nəzəri mexanika fakültəsinin laboratoriya müdiri 1951-ci il təvəllüdlü Tamilla Zülfüqar qızı Əzizova,

**3.** Neft-qaz istehsalı və emalı texnikası kafedrasının müəllimi, dosent 1946-cı il təvəllüdlü Məcnun Abdulvahid oğlu Vahidov,

**4.** Biotexniki və texniki cihazlar kafedrasının laborantı 1978-ci il təvəllüdlü Şəfa Afət qızı Məmmədova,

***Tələbələr:***

**5.** 1988-ci il təvəllüdlü Taleh Tariyel oğlu Məmmədov,

**6.** 1989-cu il təvəllüdlü Yusif Telman oğlu Bəndəliyev,

**7.** 1988-ci il təvəllüdlü Ayaz Cavanşir oğlu Bağırov,

**8.** 1987-ci il təvəllüdlü Savalan Allahverdi oğlu Cabbarov,

**9.** 1989-cu il təvəllüdlü Emin İmaməli oğlu Abdullayev,

**10.** 1990-cı il təvəllüdlü Ruslan Cəfər oğlu Babaşov,

**11.** 1988-ci il təvəllüdlü Ceyhun Sakit oğlu Aslanov,

**12.** 1957-ci il təvəllüdlü Ayna Abbasqulu qızı Qurbanova.

Bundan başqa Neft-qaz quyularının qazılması kafedrasının böyük mühəndisi Faiq Bəhram oğlu Rüstəmbəyov, Neft-qaz istehsalı və emalı texnikası ka-



fedrasının tədris ustası Zemfira Seyidi qızı Hüseynli,

*Tələbələr*:

Kənan Tələt oğlu İsayev, İlkin Azər oğlu Şirəliyev, Elşən Elbəyi oğlu Mustafayev, Rəhman Sahib oğlu Axundov, Elvin Azər oğlu Cəmiyev, Səbinə Əşrəf qızı Qurbanova, Elşən Xanlar oğlu Məmmədov, Bəxtiyar Aydın oğlu Cəfərov, Suriya vətəndaşı olan Daas Muavviyya, Sudan vətəndaşları Mustafa Məhəmməd Qasim və Seyid Əhməd Əmru atılmış güllələrin hədəfi olsalar da, xoşbəxtlikdən sağ qala bilmişdilər.

İstintaqın gəldiyi qənaətə görə, hadisəni törədən cinayətkar 29 yaşlı Gürcüstan vətəndaşı Fərda Qədirov ələ keçməmək üçün əlindəki silahla özünü vurub. Cinayət işi üzrə həbs olunan Cavidan Əmirov, Nəcəf Süleymanov və Nadir Əliyev Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adam öldürməyə hazırlıq, qəsdən adamöldürmə, qəsdən adam öldürməyə cəhd, mütəşəkkil dəstə tərəfindən qaçaqmalçılıq, qanunsuz olaraq odlu silah, döyüş sursatı əldəetmə, saxlama, daşıma və gəzdirmə, qanunsuz olaraq narkotik vasitələri əldəetmə, saxlama və daşıma, Ariz Qabulova isə qaçaqmalçılıq və qanunsuz olaraq odlu silah, döyüş sursatı əldəetmə, saxlama, daşıma və gəzdirmə maddələri ilə ittiham olunub. Fərda Qədirovun ölümü ilə əlaqədar cinayət işinin onun barəsində olan hissəsinə xitam verilib.

İş üzrə tərtib olunan ittiham aktına görə qanlı terror olayının sifarişçisi Gürcüatanın Şulaver stansiyasının sakini olan erməni əsilli Mardun Qumaşyandır. M.Qumaşyan Azərbaycan jurnalistlərinə dəfələrlə bildirib ki, onun baş verən cinayətlə hər hansı əlaqəsi yoxdur. http://musavat.com/news/olke/adna-terrorunda-adi-kechen-ermeni-yeni-musavata-neler-dedi_395974.html ttp://musavat.com/news/olke/adna-terrorunda-adi-kechen-ermeni-yeni-musavata-neler-dedi_395974.html

İş üzrə məhkəmə prosesi zamanı bir çox uyğunsuzluqlar üzə çıxıb. İstintaqın gəldiyi qənaət təqsirləndirilən şəxslərin özlərinin, vəkillərinin məhkəmənin diqqətinə çatdırdıqları fakt və sübutlarla təkzib edilib. Məhkəmə zamanı iddia olunurdu ki, ibtidai istintaq zamanı həbs edilənlərə təzyiqlər olub. Nadir Əliyev özünə qarşı yalan ifadə verməyə məcbur edilmək üçün ayağında asılıb, dırnaqları çıxarılıb. Lakin işgəncə faktları araşdırılmayıb. N.Əliyev F.Qədirovla eyni kənddən olduğunu, lakin onunla hər hansı bir cinayətə getmədiyini, həmin gün işdə olduğunu bildirib. Dediklərini təsdiq etmək üçün "Təhlükəsiz şəhər" və onun hərəkət marşrutu üzrə metropolitenin nəzarət kameralarından çıxarışların işə əlavə olunmasını tələb edib. Həqiqətin üzə çıxamasına xidmət edən bu vəsatəti hakim təmin etməyib. İş üzrə digər təqsirləndirilən şəxslərin də oxşar məzmunlu vəsatətləri rədd olunub. Məhkəmənin sonunda hakim Ramella Allahverdiyeva Nadir Əliyev, Cavidan Əmirov və Nəcəf Süleymanov ömürlük, Ariz Qabulov isə 13 il müddətinə azadlıqdan məhrum edilib. Sonradan Bakı Apelyasiya Məhkəməsi və Ali Məhkəmə də iş üzrə tam obyektiv araşdırmalar aparmayıb. Ölkə daxili məhkəmələr tam obyektiv qərarlar çıxarmamaqla baş vermiş qanlı terror aktında dünyasını dəyişən, yaralananların qanını yerdə qoyublar. Hazırda təqsirləndirilən şəxslərin şikayətləri Avropa Məhkəməsindədir. Cavidan Əmirovun vəkili Hüseynxan Mustafayev deyib ki, ümidləri həmin məhkəmənin ədalətin bərqərar olmasına xidmət edəcək qərarınadır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Şəmkirin icra başçısının düşdüyü qəza sürücünün boynuna qoyulur - ilginc gəlişmə

**Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədovun düşdüyü avtoqəzanı sürücüsünün üzərinə qoyurlar. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, qəza zamanı sükan arxasında başçının köməkçisi Mahir Əliyev olub.**

Bu il martın 25-də, Şəmkir Su-Elekrik Stansiyasından rayon mərkəzinə gedən yolun Yeniabad kəndi ərazisindən keçən hissəsində, günorta 2-3 radələrində onun idarə etdiyi Az 57 AA 001 dövlət nömrə nişanlı, qara rəngli "Tayota Land Cruiser" markalı avtomobil qəfil və yüksək sürətlə qarşı yola çıxıb. Həmin vaxt qarşı yolda Mingəçevirin Əzizbəyov küçəsi 12 ünvanında qeydiyyatda olan 1947-ci il təvəllüdlü Həsən Əvkər oğlu Hüseynov özünə məxsus "Qaz - 31" markalı avtomobillə hərəkətdə imiş. H.Hüseynovun sükan arxasında professional davranışı dəhşətli qəzanın ölümsüz sonuclanmasına səbəb olsa da, onun özü ağır bədən xəsarətləri alıb. Dəhşətli toqquşma anında başçının olduğu maşında təhlükəsizlik yastıqları açıldığından A.Məmmədov, 2 övladı və köməkçisi yüngül əzilmələrlə canlarını qurtarıblar.

Avtomobildən düşən A.Məmmədovun köməkçisinin ilk işi qarşı maşındakı sürücünün sağ olub-olmamasını yoxlamaq olmayıb. M.Əliyev dərhal idarə etdiyi maşının nömrə nişanlarını açıb. Bunu ona görə ediblər ki, qəzanın baş verməsini sonradan ört-basdır edə bilsinlər. Elə belə də olub. Dəhşətli qəza dərhal ört-basdır edilsə də, sonradan təfərrüatları üzə çıxıb.



Qəza anından az sonra ərazidən keçənlər icra başçının olduğu maşının foto və videosunu da çəkə biliblər. Verilən məlumatda qeyd olunur ki, A.Məmmədovun göstərişi ilə qəza digər avtomobilin sürücüsü - yəni H.Hüseynovun xətası üzündən baş verdiyi kimi rəsmiləşdirilib, özünün xidməti maşının sükanı arxasında isə köməkçisi deyil, sürücüsünün olduğu qeyd olunub.

Məsələ ilə bağlı A.Məmmədovun mövqeyini də dinləməyə hazırıq.

❑ **E.HÜSEYNOV**

# Ordumuza qarşı Tavuş təxribatı



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Moskvadakı Qarabağ danışıqlarından bir gün sonra erməni təbliğatının yaydığı dezo diqqətimi çəkdi. Düşmən ölkə mediası hay-küy qaldırdı ki, bəs, Azərbaycan ordusu Ermənistanın Tavuş vilayətindəki kəndlərini atəşə tutub. Əlbəttə, bu iftira xarakterli xəbər təkcə Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyanın ağlının məhsulu deyildi, burada xüsusi məkr var, şübhəsiz.**

Düşmənin "atəşə tutulduğu"nu dediyi Noyamberyan rayonunun Baqanis və Koti kəndləri tərəfdən illərdir ki, Azərbaycanın Qazax rayonunun yaşayış məntəqələri, həmçinin hərbi mövqelərimiz atəşə tutulur. Özü də düşmən əsgəri adətən, yaşayış məntəqələrinin arxasında gizlənir ki, özünü qoruya bilsin. Azərbaycan cavab atəşi açanda isə şivən qoparırlar. Necə ki, ötən ilin aprelində təxribat-diversiya hərəkətlərinin cavabını alandan sonra Talış kəndində hələ kim tərəfindən öldürüldüyü bilinməyən üç erməni sakinin fotolarını yayıb əks-təbliğata başladılar. Hətta həyasızcasına bu fakta görə Azərbaycana qarşı Avropa Məhkəməsində dava açdılar. Lakin bir qurum, bir səlahiyyət sahibi bu mənfurlara demir ki, sizin Azərbaycan torpağınızda nə ölümünüz var?

Erməni tərəfin budəfəki şivəni, Noyamberyan kəndlərinin guya "atəşə tutulması" iddiası isə sözsüz ki, Rusiyaya mesajdır. Bununla demək istəyirlər ki, Azərbaycan KTMT-nin üzvü olan Ermənistanın "ərazilərinə müdaxilə edir, ona təhlükə yaradır". Kəsəsi, işğalçı Qarabağ cəbhəsində, Azərbaycan sərhədləri daxilində ordumuza müqavimət göstərə bilmədiyini anlayıb savaşı Ermənistan-Azərbaycan cəbhəsinə çəkmək istəyir. Ötən ilin dekabrında belə bir cəhd olmuşdu, o zaman əsgərimiz Çingiz Qurbanov - Azərbaycanın Milli Qəhrəmanı - düşmənə qəhrəmancasına müqavimət göstərib şəhid olmuşdu.

O zaman da Ermənistan rəhbərliyinin "qan-qan" dediyi vaxtlar idi, aprel döyüşlərində burnu ovulduğu üçün Rusiyadan "İsgəndər payı" almışdı, danışıqlardan imtina etmişdi, ona görə də gərginliyi dövlət sərhədlərinə keçirmək istəyirdi. Sonrakı aylarda, yanvar-fevralda bütün cəbhəboyu baş verənlər, qarşılıqlı itkilər də İrəvanın müharibə ritorikasına kökləndiyini, sülh danışıqlarında maraqlı olmadığını göstərdi. Bu dəfə də eyni taktika işə salınır.

Ermənistan silahlı qüvvələrinin sabiq baş qərargah rəisi Yuri Xaçaturov mayın 2-dən KTMT baş katibi vəzifəsini icra edəcək. Əsas məqsəd budur ki, Bordyujanın zamanında ələ edə bilmədiyi uğuru-Ermənistan-Azərbaycan savaşına KTMT-ni cəlb etmək planını bu dəfə reallaşdırsın.

Əslində Rusiya rəsmilərinin bir-birinin ardınca sərgilədiyi anti-Azərbaycan mövqeyi bizi narahat etməlidir, bəlkə elə Tavuş təxribatı rus planıdır. Rusiya Ermənistanı silahlandırır, işğalçı ölkə ilə birgə hərbi birləşmə yaradır, XİN rəhbəri Sergey Lavrov "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil" deyir, onun mətbuat katibi Mariya Zaxarova Şuşada 3 il yaxındır girov saxlanılan Rusiya vətəndaşı (!) Dilqəm Əsgərov və Şahbaz Quliyevdən xəbər soruşan azərbaycanlı jurnalisti təhqir edirsə, şimaldan hər cür təhlükə gözlənilməndir.

Fakt budur ki, Azərbaycan ərazilərindəki erməni ordusu son günlər göz açmağa imkan tapmır, bir-birinin ardınca itki verir. Beynəlxalq qanunlar isə bunu Azərbaycanın daxili işi hesab etdiyi üçün Serj Sərkisyan çarəsiz durumdadır. Eyni zamanda nə qədər silah-sursat yardımı alsa da, Azərbaycan ordusunun qarşısında acizdir.

Budur, "Global Firepower" təşkilatının son hesabatına görə, Azərbaycan Silahlı Qüvvələri "dünyanın ən güclü ordusu" reytinqində 59-cu yerdədir. Qonşu Gürcüstan reytinqdə 80-cı, Ermənistan isə 95-ci pillədə qərarlaşıb. 2016-cı ildə Azərbaycan 60-cı olmuşdu və 94-cü yerdə qərarlaşmış Ermənistanı 34 pillə qabaqlamışdı (Virtualaz.org). Bunun nəticəsini aprel müharibəsində hər kəs gördü.

Bu il isə ordumuz daha bir pillə irəliləyib, düşmən isə geri gedib - "İsgəndər M" hədiyyəsinə baxmayaraq. Sərkisyan da bu reallığı dərk edir. Azərbaycan ordusunun sonuncu 30 minlik hərbi təlimləri, həmçinin Azərbaycan-Türkiyə birgə təlimləri düşməni narahat etməyə bilməzdi. Odur ki, "ən uğurlu variant" savaşı dövlət sərhəddinə keçirməkdir onun nəzərincə...



# Ali və Nazın permanent nişanlanmasının sonu

**Samir SARI**

**İlin əvvəlləriydi, bir axşam işdən sonra yaxın qohumgilə getmişdim, 5-10 dəqiqəlik bir söhbət vardı. Mən evə daxil olanda televiziyada "Zühal Toplalla izdivac" (yada "Evlənəcəksən,gəl") verilişi gedirdi və evdəki hər kəs - ailə başçısı da daxil, oturub bu verilişə baxırdı. Dedim, siz Allah, bu nədir baxırsınız. Dedilər, maraqlıdır, verilişə iki azərbaycanlı gənc qatılıb, birinin adı Nazdır, o birininki Alidir, bu gün nişanlanırlar.**

Baxdım ki, oğlan sanki modeldir, podiumdan yenicə düşüb, qız da gözəldir,elə bir gözəllik müsabiqəsindən yarımçıq çıxıb. Verilşin daimi izləyiciləri dedilər ki, elədir, oğlan modeldir, ölkəmizdə məşhurdur, indi də Türkiyəni fəth edir və sırf ona görə, onunla ailə qurmaqdan ötrü Türkiyənin hər yanından, hətta xaricdən verilişə qatılanlar var.

Dedim, ay əzizlərim, bir azərbaycanlı oğlanla bir azərbaycanlı qız nişanlanırlarsa, ailə qururlarsa, bunu 2 min kilometr uzaqda niyə edirlər, öz ölkəmizdə VVAQ şöbəsi, şadlıq sarayı, telekanallar yoxdurmu? Gərək bunların izdivacını bütün türk dünyası (eləcə də İranın, Ərəbistanın yarısı) görsün?

Dedilər, verilişin formatı belədir. Yaxşı, dedim, bir halda ki, iki bakılı gedib İstanbulda tapışıblar, lap əla, çıxıb gəlsinlər ölkəmizə, ailələrini qursunlar, təzədən niyə qayıdıb iştirakçılar arasına girir, "talib", qismət gözləyirlər.

Əlavə olaraq dedim ki, bunların hamısı quramadır, düzməcədir, əvvəlcədən razılaşdırılmış rollardır, xüsusi bir ssenariyə əsaslanır, heç bir gerçəklik yoxdur, əvəzində siz saatlarla ekran qarşısında oturursunuz, vaxtınız gedir, onlar isə reklamlardan milyonlar qazanırlar.

Aradan iki-üç ay keçdi, həmin evə eyni saatda bir də gedəsi oldum, yenə hamını eyni verilişə baxan yerdə, ekran qarşısında yaxaladım. İnanmazsınız, 3 ay qabaq nişanlanan Ali və Naz yenə nişanlanırdılar. Heç demə, onlar o vaxt evlənməyiblər, arada iki-üç dəfə mübahisə edib ayrılıb-barışıblar, indi yenə talelərini birləşdirirlər. Üç ay öncə danışdıqlarımı xatırlatdım, bu dəfə mənə haqq verdilər, dedilər, hə, vallah, bunlar da başımızı xarab ediblər, nə evlənən kimi evlənirlər, nə də ayrılan kimi ayrılırlar.

Onları çox da qınamıram. Çünki Türkiyədə və ölkəmizdə bənzər verilişlər hazırlayan telekanallara baxırlar, amma bu verilişlərin pərdəarxası məqamlarını yazan qəzetləri oxumurlar.

Oxusalar, bilərdilər ki, Türkiyənin beş məşhur jurnalistindən biri olan Emil Çölaşan hələ ötən ildən bu cür verilişlərə dair sırf həqiqəti əks etdirən məqalələr yazır və bu verilişlərin nə qədər saxta, qurama olduğunu, prodüsser və aparıcıların, eləcə də "evlənməyə gələn",əslində isə qeyri-peşəkar aktyor olan bu insanların həmin düzməcə-qurama şoulara görə nə qədər pul-para qazandıqlarını millətə çatdırır.

Əlbəttə, insanların istədikləri kimi əyləncəli şoulara baxmaq hüquqları var, amma bu məsələdə ortada yekə bir dələduzluq faktı olduğu da gerçəkdir. Milyonlarla insanı ekran qarşısında oturdub aldadır, həyəcanlandırır, həvəsləndirir, kədərləndirib, sevindirirlər və bütün bunların hamısı böyük bir yalandır. Realiti-yalan.

Bu cür verilişlərin gənc nəslin təlim-tərbiyəsinə nə qədər mənfi təsir göstərdiyini isə heç bir taksometr ölçə bilməz. Dünənə qədər bu ölkədə yüzlərlə, bəlkə də minlərlə gənc xanım vardı ki, əsas arzuları bir yolla Türkiyəyə getmək, orda o cür verilişlərə qatılmaq və özlərinə "qismət bulmaq" idi. Bəs necə, görmürlərmi Ali və Naz bütün Türkiyəni necə valeh eidb.

Bu binəvaların ağlına da gəlmirdi ki, Ali və Nazı o verilişlərə əsasən üstün fiziki göstəricilərinə, xarici görünüşlərinə və rol oynamaq qabiliyyətlərinə görə götürüblər.

Bənzər verilişlərdə aylarla çəkilən xanım iştirakçılardan birinin bahalı apartmanda yaşadığı, telekanalın studiyasına sürücü və mühafizəçilərlə gəlib-getdiyi məlum olmuşdu. Bizim millət də ekran qarşısında oturub həyəcanlanırdı ki, görəsən, bu həyalı, ismətli xanım özünə "hayırlı kısmet" tapacaqmı? Nə qismət, a kişi, xanım artıq Yeşilçam aktrisaları qədər para qazanır, "əlini sallasa əllisi" moduna girib və bu günə bu gün heç Bred Pitti də bəyənməyəcək durumdadır.

Nə yaxşı ki, srağagün o cür verilişləri bağladılar. İndi qohum-əqrəbaya qonaq getmək olar. Ali və Naz ekranda görünmədiklərinə görə artıq qonağa bir stəkan çay təklif edən olacaq, hər halda.

# İlin 4 ayının iqtisadi yekunu: ümidlənəkmi?

**2017-ci ildən keçən 4 ay ərzində Azərbaycanda iqtisadi çətinliklərin aradan qaldırılması üçün müəyyən addımların atıldığının şahidi olduq. Lakin gerçək belədir ki, ölkə iqtisadiyyatını kökündən dirçəltmək, ölkənin idxal asılılığını aşağı salmaq, milli valyutamıza - manata etibarı gücləndirmək üçün hələ çox işlər görülməlidir. Bunu keçən 4 ayın yekunu da aydın şəkildə deyir.**

## Fikrət Yusifov: "Azərbaycan iqtisadiyyatı tədricən ötən ildəki geriləmələri arxada qoymağa başlayıb"

Doğrudur, son aylarda hökumətin manatın məzənnəsini sabit saxlaması ümidlər yaradır. Amma bununla belə, dolların kursunun hələ də yüksək səviyyədə qalması bahalaşmanın davam etməsinə əsas verir ki, bu da vətəndaşlarda ciddi narahatlıq yaradır. Ekspertlər proseslərin bu şəkildə davamının müsbət nəticələr doğurmayacağını qeyd edirlər. Bundan əlavə, Azərbaycanda keçiriləcək İslam Oyunları və "Formula-1"dən sonra manatın məzənnəsinin yüksələcəyi, 2 manat 50 qəpik, hətta 3 manata qədər qalxacağı barədə proqnozlar var.

Lakin sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov nikbindir. Onun sözlərinə görə, ölkə iqtisadiyyatı ötən ildəki geriləmələri artıq arxada qoymağa başlayıb: "Rəsmi statistikada təqdim olunan məlumatlar cari ilin üç ayının nəticələrini əks etdirir. Bu səbəbdən biz də yalnız birinci rübün yekunla-



Fikrət Yusifov

rına istinad edərək, cari ildə iqtisadiyyatda baş verən prosesləri dəyərləndirə bilərik. Cari ilin birinci rübündə 2016-cı ilin birinci rübünün eyni göstəriciləri ilə müqayisədə müsbət dinamika qeydə alınıb. Bu, çox yaxşı haldır və o deməkdir ki, ölkə iqtisadiyyatı tədricən ötən ildəki geriləmələri arxada qoymağa başlayıb. Lakin burada bir məsələni də diqqətdən qaçırmaq olmaz. Keçən ilin ilk üç ayı ərzində neftin dünya bazarlarında orta qiyməti 35,1 dollar olmuşdusa, cari ilin birinci rübü ərzində bu rəqəm 54,8 dollar, yəni ötən ilin müvafiq dövründəkindən 20 dollara qədər artıq olub. Ona görə də iqtisadiyyatda bu gün baş verən pozitiv məqamlar heç kimi arxayınlaşdırmamalıdır. Real sektorun hərtərəfli inkişafını hədəfləyən islahatlar paketinin yüksək səviyyədə reallaşdırılması baş verməlidir".

İqtisadçı alim bank sektorunda aparılmalı olan islahatlara da toxundu: "Bu gün iqtisadiyyatın real sektorunun və onun bütövlükdə inkişafının qarşısında bir böyük əngəl ağır durumda olan bank sektorudur. Ölkə iqtisadiyyatına maliyyə dəstəyi verməli olan bu mühüm sektor, təəssüf ki, sağlam durumda deyil. Bu səbəbdən islahatların sabahı naminə bank sektorunda təxirəsalınmaz islahatlar aparılmalıdır. Bankları bağlamaq islahat deyil. Ölkədə bank sisteminin yenidən qurulmasına yönəlik qətiyyətli addımlar atmaq lazımdır. Manatın məzənnəsində sabitliyin olması da ölkədə iqtisadi islahatların nə qədər sürətlə aparılmasından və iqtisadiyyatın bütövlükdə real sektora nə dərəcədə uğurla transformasiya edilməsindən çox asılı olacaqdır. Cari ilin iki ayı ərzində qeyri-neft sektorundan ixracın həcminin bir xeyli artması faktı qeydə alınıb. Ancaq bu istiqamətdə hələ çox işlər görülməlidir. Real sektordan ixrac imkanlarını maksimum genişləndirmək və ölkəyə bu hesaba valyuta axınını əsaslı şəkildə artırmaqla iqtisadiyyatın neftin qiymətlərindən asılılığını aradan qaldırmaq mümkündür. Belə olduqda milli valyutanın məzənnəsinin tam dayanaqlı olması da təmin ediləcəkdir".

❑ **Cavanşir ABBASLI**

# Maltanın baş naziri: "Tərəfdaşımız SOCAR-a təşəkkür edirəm"

**Maltanın baş naziri Cozef Muskat ölkənin enerji həyatında yaxından iştirak edən Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) təşəkkürünü bildirib. Report xəbər verir ki, bunu o, aprelin 24-də Maltanın Marsaşlokk şəhərində təsisçilərindən biri "SOCAR Traiding" olan "ElectroGas Malta" şirkəti tərəfindən inşa edilən qaz terminalı və elektrik stansiyasının açılış mərasimində çıxışı zamanı deyib.**

Baş nazir son üç il ərzində aparılan enerji siyasəti sayəsində ölkədə yoxsulluğun səviyyəsinin iki dəfə azaldığını diqqətə çatdırıb: "Cəmi üç il ərzində yerinə yetirdiyimiz enerji siyasəti



Cozef Muskat

sayəsində ölkəmizdə yoxsulluğun səviyyəsini iki dəfə azlatmağa nail olduq. Hökumət son bir həftə ərzində mütəmadi olaraq xalqın qarşısına çıxıb və gördüyü işlərin hesabatını verib: yerinə yetirdiyi sözlərlə, reallaşdırdığı arzularla, yoxsulluq səviyyəsini iki dəfə azaltmaqla, büdcə kəsirini aradan qaldırıb cəmi bir il ərzində 8 mln. avro prifisitə çevirməklə, əvvəlki qanunverici orqanın səlahiyyət dövründə yığılmış dövlət borcunu silməklə. Bu onu göstərir ki, siz eyni zamanda həm iqtisadi cəhətdən səlahiyyətli, həm də sosial cəhətdən məsuliyyətli ola bilərsiniz. İnanıram, Malta xalqı başa düşür ki, bu hökumət səhvlər edir, bəzən də böyük səhvlər buraxır, lakin o həm də xeyli yaxşı iş görür. Xalq başa düşür ki, biz istiqaməti uğurla dəyişmişik".

Cozef Muskat daha sonra Maltanın enerji siyasətinin həyata keçirilməsində əməyi olan şəxslər və tərəfdaş şirkətlərə, o cümlədən SOCAR-a minnətdarlıq edib: "Mən sözlərimi nazir Mizziyə gördüyü işə və bu layihəyə uğurla rəhbərlik etdiyinə görə təşəkkür etməklə bitirmək istəyirəm. "Enemalta" şirkətinin rəhbərliyinə dövlət şirkətinin ən yüksək, fərdi şirkətlərin belə həsəd aparacağı iş standartını nümayiş etdirdiyinə görə təşəkkür edirəm. Baş verənlərdə əminliklə iştirak edən və ölkədəki rəqabət mühitinə baş vuran "Electrogas" şirkətinə minnətdaram. Bütün tərəfdaşlara, "Siemens", SOCAR və hər bir iştirakçıya təşəkkür edirəm. Çox sağ olun".

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017

# "Siqaret çəkirsən, həm xərcin çıxır, həm də canın gedir"

## Siyavuş Novruzov: "Bir də görürsən kimsə düşür ortaya, başlayır Şah İsmayıl, yaxud Məhəmməd Əmin Rəsulzadə haqqında iddialar səsləndirməyə"

"Baxış bucağı"

**Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovla gündəmdəki ən müxtəlif məsələlərdən danışdıq. Əvvəlcə son zamanlar parlamentin foyesində az-az görünməsi haqda soruşdum:**

***- Siyavuş bəy, deyəsən, komitə sədri olandan parlamentə giriş-çıxış qapısını dəyişmisiniz. Əvvəllər foyedə görüşüb suallarımıza cavab almaq imkanımız olurdu, son günlər sizi görə bilmirik...***

- Yox. Mən elə əvvəldən o qapıdan gedib-gəlirdim (gülür). Amma fərqi yoxdur, mən bu tərəfdən də çıxıram, o tərəfdən də. Çox vaxt olur ki, binada qalıram, Məclisdən sonra komitənin işləri, şöbələrlə iş və s. digər məsələlərlə əlaqədar gec çıxıram, ona görə rastlaşa bilmirik. Yoxsa ayrı səbəb yoxdur.

***- Sizin komitə sədri olmağınızı nəzərə alıb bir məsələyə münasibət bildirməyinizi xahiş edirəm. Mingəçevirdəki Heydər məscidinin axundu Hacı Ələmdar deyib ki, "Kimin artıq arvadı varsa, evlənməyə imkanı olmayan müsəlman qardaşına versin". Bu fikrə münasibətiniz necədir?***

- Tamamilə səhv düşüncə tərzidir. Nə Quranda, nə başqa yerdə belə qayda yoxdur. Şəriətdə belə bir məsələ var ki, əgər kimsə həyat yoldaşını hərtərəfli təmin edə bilirsə, onda razılıq əsasında digəri ilə də evlənə bilər. Amma Azərbaycanda bu məsələlər qəti şəkildə qadağandır. Biz dünyəvi dövlətik. O baxımdan "Dini etiqad azadlığı haqqında", "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunları qəbul edəndə də bir məsələni xüsusi vurğulamışdıq ki, xaricdə təhsil alıb gələnlər ordakı yaşam, düşüncə tərzini, adət-ənənələri də özü ilə gətirir. Gənc yaşlarında kimsə gedir başqa ölkəyə, 6-8 il orda yaşayır, oranın qanunları əsasında fəaliyyət göstərir, təhsillə yanaşı, ordakı adətlər də ona sirayət edir. Həmin şəxs də çalışır qayıtdıqdan sonra öyrədə biləcəyi təhsil, oxuyacağı ayinlərlə yanaşı, həmin adət tərzini, yaşam tərzini burdakı cəmiyyətə yeritsin. O baxımdan da biz qanuna belə bir düzəliş etdik ki, xaricdə təhsil alıb Azərbaycana qayıdan şəxslər Qafqaz Müsəlmanları İdarəsi ilə yanaşı, müvafiq icra hakimiyyəti orqanı tərəfindən də razılaşdırıldıqdan sonra müxtəlif dini ayinləri həyata keçirməsi üçün təyin oluna bilər. Əgər dediyiniz şəxs bu cür düşüncə tərzinə malikdirsə, onu nə ictimaiyyət arasına, nə də məscidə moizə oxumağa buraxmaq olmaz. Təbii ki, müvafiq attestasiya keçirilməlidir və yəqin onunla bağlı müvafiq ölçü götürüləcək.

***- Parlamentin son iclasında valyutadəyişmə məntəqələri ilə bağlı qanun layihəsinin müzakirəsi zamanı bəzi etirazlarınızı ifadə etdiniz. Maraqlısı budur ki, bu sektorun fəaliyyətini yasaq edən qanun bir il sonra dəyişdirildi. Sizcə, eyni tərkib niyə bu cür davranır?***

- Təbii ki, biz bu məsələni keçmişdə də mütəmadi olaraq qaldırmışdıq. Bilirsiniz ki, bununla əlaqədar həm parlamentin qanunvericiliyi ilə, həm də cənab prezidentin sərəncamı ilə Maliyyə Nəzarəti Palatası yaradılıb. Artıq valyutadəyişmə məntəqələri, qiymətli kağızlar, digər bu kimi məsələlər məhz həmin qurumun nəzarəti altında həyata keçəcək. Vaxtilə bankların nəzdində olan valyutadəyişmə məntəqələlərinin bağlanması və yalnız bir neçə yerdə saxlanılması təbii ki, vətəndaşlara, o cümlədən bu fəaliyyətlə məşğul olan şəxslərə xeyli ziyan vurdu və "qara bazar"ın meydana çıxmasına şərait yaratdı. Bunun nəticəsi olaraq təxminən 2 minə yaxın valyutadəşimə məntəqəsi bağlandı və 8 minə yaxın insan ailə üzvləri ilə bir yerdə gəlirdən məhrum oldular. Bu məntəqələrin yenidən, lisenziya əsasında açılması ən düzgün mexanizmdir ki, biz qəbul etdik. İstənilən valyutadəyişmə məntəqəsi açmaq istəyən şəxs artıq bankdan asılı vəziyyətdə olmayacaq. Keçmişdə bunlar bankın filialı kimi fəaliyyət göstərirdi, oradan gələn gəlirlərin əksəriyyəti də bankın xeyrinə yönəlirdi. İndi isə istənilən Azərbaycan vətəndaşı, fiziki və hüquqi şəxs lisenziyanı, lazımi sənədləri təqdim etməklə valyutadəyişmə məntəqəsi aça bilər.

***- Amma digər bir qanun, məsələn, Rəqabət Məcəlləsi 11 ildir ki "səddi aşa bilmir", qəbul olunmur. Bunun səbəbi nədir?***

- Rəqabətlə əlaqədar qanun layihəsi də artıq Milli Məclisə təqdim olunur, müzakirəyə çıxarılıb qəbul olunacaq. Hər bir qanunu vaxtından qabaq da qəbul etmək olmaz, çox gecikdirmək də.

***- Mərhum Əbülfəz Elçibəyin fikrini xatırlatdınız... Bu yaxınlarda siz də Elçibəy haqqında maraqlı fikirlər söyləmişdiniz, onu yüksək qiymətləndirmişdiniz. Amma bunun ardınca Nemət Pənahlı mətbuata açıqlamasında Elçibəyin KQB ilə əlaqədə olduğunu iddia etdi. Belə iddialara münasibətiniz necədir?***

- Bu məsələlərlə bağlı bütün dövrlərdə fikirlər səslənib. 70-ci illərdə sovet hökumətinə qarşı mübarizə aparan Elçibəyin ərizəsini mətbuata təqdim edib və s. Təbii ki, orada nə yazılmasından asılı olmayaraq, həyat kimin kimliyini, kimin dəyişməzliyini, kimin kim olduğunu sübuta yetirdi. Mən hesab edirəm ki, o məsələləri qaldırmağa heç bir ehtiyac yoxdur. Mən bir məsələni qeyd etmək istəyirəm ki, Azərbaycanda bu ənənəyə son qoymaq lazımdır. Müəyyən adamlar var ki, gündəmdə qalmaqdan, yada düşməkdən ötrü müxtəlif məsələlər ortaya atırlar. Vaxtilə elə həmin Nemət Pənahlının haqqında deyirdilər ki, KQB agenti olduğuna görə onu "Azadlıq" meydanına çıxarıblar. Təbii ki, mən nə onun dedikləri ilə, nə də ona qarşı deyilənlərin heç biri ilə razılaşmıram. Çünki mənim əlimdə konkret faktlar yoxdur. Bir də görürsən kimsə düşür ortaya, başlayır Şah İsmayıl haqqında, yaxud Məhəmməd Əmin Rəsulzadə haqqında iddialar səsləndirməyə. İndi mən ümummilli liderimizi demirəm. Bilmək lazımdır ki, Şah İsmayıl Xətai, Heydər Əliyev, Məhəmməd Əmin Rəsulzadə Azərbaycan xalqının nailiyyətləri, yetişdirdiyi böyük şəxsiyyətlərdir. Bu cür insanlar haqqında fikir söyləyən hər bir şəxsin əlində kifayət qədər faktı olmalıdır və belələri cəmiyyət tərəfindən kifayət qədər qəbulolunan və hörmət edilən şəxslər olmalıdır, həmçinin dediklərini əsaslandırmalıdır.

***- Bu günlərdə 28 aprel işğalı, sovetlər ittifaqı barədə xoş sözlər deyənlər oldu. Hətta bəziləri 28 aprelin işğal günü olmadığını iddia etdi...***

- Yox, bu, düzgün fikir deyil. Cənab prezident elə bu yaxınlarda sənaye üsulu ilə ilk dəfə neft çıxarılan quyunun üzərindəki lövhənin açılışında dedi ki, vaxtilə Azərbaycan Çar Rusiyası, Sovetlər Birliyi tərəfindən işğal olunmasaydı, 70 il sovetlər birliyinin tərkibində olmasaydıq, müstəqil olsaydıq, bundan on dəfə artıq yaxşı yaşayardıq, daha böyük nailiyyətlərimiz olardı. O baxımdan bu fikri söyləyənlər bugünkü Azərbaycanla keçmiş Azərbaycanı müqayisə etsinlər, görəcəklər ki, hər bir regionda yerlə göy qədər fərq var.

***- Bu günlərdə Rusiya diplomatı Azərbaycan mediasına həqarət etdi. Sosial şəbəkələrdə sizin də adınız hallandırıldı ki, Rusiyadan orden alan azərbaycanlı siyasətçilər niyə təhqir olunmağımıza etiraz etmir? Şəxsən sizin Zaxarovanın dediklərinə münasibətiniz oldumu, yaxud olacaqmı?***

- Mən mətbuatda öz etirazımı bildirmişəm. Xarici İşlər Nazirliyi də məsələyə münasibətini ortaya qoyub. Yəni bizim ordan orden-medal almağımız hərbi xidmətlə bağlı olan bir məsələdir, bununla əlaqədar başqa fikir söyləmək düzgün deyil. Bizim dövrümüzdə sovet ordusuna xidmətə aparırdılar. Mən həm Sovet ordusunda, həm də Azərbaycanın milli ordusunda xidmət etmişəm, Qarabağın azadlığı uğrunda mübarizə aparmışam, həmçinin uzun müddət Naxçıvan Muxtar Respublikasında, həmçinin digər bölgələrdəki döyüşlərdə iştirak etmişəm. O baxımdan deyilənlər həmin insanlara aidiyyəti olmayan məsələdir. Onda gərək biz 41-45-dən başlayaq ki, niyə bizimkilər müharibəyə gedib? Getməyəcəkdilər, aparıb güllələyəcəkdilər ki, "vətən xainidir". (gülür) Yəni gərək bu məsələlər



### "O insanlar ən ağır cəza ilə cəzalandırılmalıdır"

elementar qaydada qəbul olunsun. O ki qaldı Zaxarovaya, onun ziddiyyətli bəyanatları çox olur. Mən hesab edirəm ki, o, Rusiya Xarici İşlər Nazirliyinə yaraşmayan hərəkətlərlə məşğuldur.

***- Bakı ermənisi Erik Xaçaturov 29 il sonra Bakıya gəldi, Azərbaycana ünvanlı isti sözlər söylədi. Bu cür qayıdışlara münasibətiniz necədir?***

- Nə qədər çox ermənilər Azərbaycan haqqında informasiya alsalar, bu, bir o qədər münaqişənin daha tez həll olunmasına xidmət edər. Vaxtilə onların deputatlarının, yaxud QHT rəhbərlərinin, media nümayəndələrinin gəlməsi hesab edirəm ki, Azərbaycanın xeyrinə olan bir məsələdir. Bəzən bu gəlişlərə başqa ad verilir. Məsələ belədir ki, erməni milləti yaşamaq üçün yaxşı yer axtarır, onun üçün vətən anlayışı tamam başqadır. Yəni günü harada xoş keçdisə, ora onunçün vətəndir. Əslində gələcəkdə düşünsələr, görəcəklər ki, onlar daha çox itiriblər, nəinki Azərbaycan. Biz bir daha qonşumuzun hansı sifətə sahib olduğunu gördük. Təbii ki, Azərbaycanın əraziləri işğal olunub, 1 milyondan çox qaçqın-köçkünü var, Xocalı soyqırmı törədilib, muzeylərimiz tar-mar edilib, bütün sərvətlər daşınıb, neçə illərdir o ərazilərdə əkin-biçin yoxdur, ümumilikdə hesablayanda Azərbaycana böyük ziyan dəyib. Bunlar hamısı Azərbaycanın qan yaddaşıdır. Amma Azərbaycan onsuz da öz torpaqlarını artıqlaması ilə geri qaytaracaq, sonda isə uduzan Ermənistan olacaq.

***- Tütün məmulatlarından istifadə ilə bağlı qərar qəbul olunsa da, onun işləyəcəyinə müəyyən şübhələr var. Ümumən tütün məhsullarının məhdudlaşdırılmasına münasibətiniz necədir?***

- Yox, mən siqaret çəkmirəm. Dünyada artıq bu proses başlayıb. Biz də bu qərarı qəbul etməklə siqareti tamamilə qadağan etmirik, amma müəyyən məhdudiyyətlər qoyuruq ki, bunlar da vacibdir, zəruridir. Tutaq ki, azyaşlı uşaqlara siqaretin satılması, ictimai yerlərdə siqaretin çəkilməməsi, məktəblər və uşaq bağçalarına yaxın ərazilərdə tütün məmulatlarının qadağan edilməsidir. Bunları hamısı Azərbaycan xalqının genefondunun qorunmasına xidmət edir. Siqaret çəkirsən, həm xərcin çıxır, həm də canın gedir.

***- Siz özünüz də facebook istifadəçisi deyilsiniz. Amma sosial şəbəkə "sakinləri"ni aşağılamağınıza da rast gəlməmişəm. Bu mənada həmkarınızın "avaralar" ifadəsini necə qarşıladınız?***

- Hərə özünün haqlı olduğunu deyir. Hesab etmirəm ki, bütün fasebook iştirakçıları bu cür insanlardır. Facebook-dan hər cür insan istifadə edir: uşaqdan tutmuş böyüyə, dövlət işçisindən tutmuş nazirə, Milli Məclisin deputatına, qəzet redaktoruna, jurnalistə, siyasi partiya rəhbərinə qədər. Təbii ki, facebook istifadəçiləri arasında o cür insanlar da var, amma bu, çoxluq təşkil edə bilməz, ola bilər 1-2 faiz olsun. Hər bir fikir götür-qoy edilməli və düzgün ifadə olunmalıdır.

***- Bir daha sizin komitə sədrinizi olduğunuzu nəzərə alıb sonuncu suala cavab almaq istəyirəm. Son zamanlar halallıqdan çox danışılır, "halal kolbasa"dan danışdığımız halda məlum olur ki, ölkəni leş əti başına bürüyüb. İndi də "halal otel" söhbəti gedir. Sanki biz halallıq adı altına haram işlərlə məşğul olmağa öyrəncəli oluruq. Səbəb nədir? Bu halların qarşısını necə almaq olar?***

- O cür insanlar ən ağır cəza ilə cəzalandırılmalıdır. Belələri özünə qazanc əldə etmək üçün insanların səhhəti ilə oyun oynayır, vətəndaşları zəhərləyirlər, xəstə heyvanlardakı müxtəlif xəstəliklərin insanlara keçməsinə şərait yaradırlar. O məhsulları istehsal edən, ona sertifikat verən, onu daşıyan, hətta belə heyvanları kəsənlər hamısı inzibati məsuliyyətə yox, cinayət məsuliyyətinə cəlb olunmalıdır ki, xalqla, millətlə bağlı olan məsələlərdə heç kəs belə saxtakarlığa yol verməsin.

***- Siyavuş bəy, belə söhbətlərdən sonra siz özünüz dönər yeyirsiniz?***

- O qədər də çox yox. Demək olar ki, son dövrlər ümumiyyətlə istifadə etmirəm. Tələbəlik vaxtlarımda, cavanlıqda olub, indi demək olar ki, yox. Həm ətin mənşəyi ilə bağlıdır. Həm də necə deyərlər, yaşım artıq o yaş deyil (gülür).

***- Nə qədər danışılsa da, çağırışlar olunsa da, əndazəni aşan toylar davam edir. Bu sahədə qayda yaradılması mümkün olacaqmı?***

- Getdikcə qiymətlər azalır, bu proses gedir. Vaxtilə adambaşına 100 manata deyilən yerlər indi 30 manatdır. Bir məsələni də demək istəyirəm: Azərbaycanda ən çox toylara gedən adamlardan biri mənəm. Dost-tanışım çoxdur, çalışıram ki, şad günündə onların yanında olum. Görürsən artıq indi dəb halını alıb, hər kənddə şadlıq evləri olmasına baxmayaraq, insanların bir çoxu çalışır ki, gəlib Bakıda toy eləsin. Bu da həmin ailələr üçün çətinlik yaradır. Vaxtilə biz görmüşük ki, belə tədbirlər rayonlarda, kəndlərdə, toy sahibinin həyətində keçirilib. O daha təbii, daha gözəl olub, nəinki buradakı toylar. Bir də görürsən bir-birini tanımayan 200-250 nəfər bir günlük Bakıya gəlir ki, toya gəlmişəm. Gərək hər kəs nümunə göstərsin, normal qayda-qanun yaratmağa çalışsın. Hərə özündən başlamalıdır ki, digərlərinə də nümunə olsun.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017



# Kim otları birinci yandırsa...

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə bütün zəhmətkeşlərimizi 1 may Əmək Bayramı münasibətiylə qutlayaq. Hazırda işsizliklə mübarizə dövlət proqramı nəticəsində hamı işlə təmin olunubdur. Boğaza qədər işin içindəyik. Bəzi adamlar iki-üç yerdə işləyir. Təki vətən yaşasın. Axı bizim Qarabağ dərdimiz vardır.**

Daha sonra türmə idarəsini təbrik edirəm, çünki onlar ingilis yazıçısı Corc Ouell-in "1984" romanındakı bir hissəni son iki gündə rəsmən həyata keçirtdilər. Artıq bu qurumu Həqiqət Nazirliyi adlandırmaq olar. Siyasi dustaq Mehman Qələndərovun Kürdəxanı türməsində intihar elədiyi xəbəri yayılmışdı. Həmin türmə idarəsi bunu təkzi elədi, dedilər yalandır, dustaq sağ-salamatdır. Ancaq üstündən 1 gün keçdi, baş prokurorluq Qələndərovun öldüyünü təsdiqlədi. Bəs türmə idarəsi niyə o açıqlamanı vermişdi? Yazdım axı: əsəri oxumaq lazımdır. Orda bunun izahı verilib. Hər hansı tarixi faktı dolaşığa salmaq, izini itirmək üçün Həqiqət Nazirliyi onu bir neçə dəfə dəyişdirirdi. Nəticədə axırda heç nazirlik özü də bilmirdi həqiqət necədir. Gəl baş aç. Ouell orada "tarixi saxtalaşdırmaq mümkün deyil", "yazıya pozu yoxdur", nə bilim, "əlyazmalar yanmır" tipli söhbətlərin kökündən baltanı vurmuşdur.

Bir duruma da hazır olmalıyıq ki, artıq yumşaq repressiyalar dövrü geridə qaldı. Avtoritar sistemlərin pullusu daha üzüyumşaq görünür. Pulla alınan adamlar, böyük maliyyə axınları ilə parçalanan cəmiyyət qruplarına indi sözün əsl mənasında paz, ling çalınır. Kasıbçılıq zorakılığı artırır. Tək cəmiyyət arasında yox, dövlətin də cəmiyyətə münasibətdə. Tarixən belə olubdur. Yadınıza salın: SSRİ-də Stalin dövrü kasıbçılıq idi, 700 min adamı 1 ildə güllələmişdilər. Sonra Brejnevin yumşaq repressiyası dövrü gəldi, çünki 70-ci illərdə dünya bazarında qiyməti qalxan neftin pulları sistemin yağlamağa, hansısa azadlıq istəyənlərin ağzını çörəklə yummağa müəyyən dərəcədə imkan verirdi. ("Çörək olarsa, mahnı da olar" - Brejnevin məşhur afyorizmi idi). Həmin dövrdə ölkədə heç babat dissident də qalmamışdı, olanlar çayxanada lətifə danışan aspirantlar idi, onları isə tutanda 1 il yarımlığa karyerdə daş yonmağa göndərirdilər, ta Sibirdə donub ölmək perspektivi gözləmirdi. Cəza müddəti bitəndən sonra isə dissident başının üstündən onu həbsə salan KGB generalının portretini fəxrlə asırdı. Maraqlı günlər idi...

Bizim müstəqil "70-ci illərimiz" də elə eynilə 10 ilə yaxın çəkdi, 2005-2015 arası bitdi getdi. İndi "yenidənqurma" və münaqişələr epoxasını yaşayırıq. Fövqəladə vəziyyətlər və Daxili Qoşunların, xüsusi təyinatlı polis dəstələrinin dövrünə keçid almışıq - manıslardan veriliş qayıran telekanalizasiya zəhmətkeşlərinin zəhləmgetmiş leksikonu ilə yazsam... Ancaq Mişa müəllimin həmin kasıb repressiyası necə nəticə verdi - bunu yəqin sistem rəhbərləri məndən yaxşı bilir. Bəlkə bu da əjdaha və qılınc haqda məşhur mifin həyatımıza növbəti proyeksiyasıdır: bunlar o qədər Qorbaçovu söydülər ki, axırda özləri də onun hakimiyyətinə bənzər bir zad qayırdılar.

Rusiyanın keçmiş baş nazirlərindən Çernomırdinin bir aforizmi yadıma düşdü: "Bizdə hansı partiya yaradırsan yarat, axırda Kommunist Partiyası alınır". Eyni məkanın varisləri olduğumuzdan bizdə də keçərli söhbətdir. İki gün qabaq mənfur işğalın rəmzlərindən olan 28 aprel günü idi, bir daha hiss elədim ki, bu işğal, müstəmləkəçilik, kölə psixologiyası bizim canımıza əməllicə yeriyibdir.

Rus kino rejissoru Sergey Loznitsa-nın bir fikri var, deyir Rusiyada yollar həmişə dalana dirənir, hansısa kəndə gedirsən, görürsən daha burdan yol heç yana çıxmır. Qonşuluqdakı, gözlə görünən, hava məsafəsi 3-4 kilometr olan kəndə getmək üçün gərək rayon mərkəzinə qayıdıb 100 kilometrə yaxın məsafə ölçəsən.

Bizdə də eynilə bu dalan vəziyyətidir. Yolsuzluqda yaşayırıq. Sözgəlişi, 3-4 gün qabaq Sibiri meşə yanğınları bürümüşdü. Neçə kəndlər, evlər külə döndü. Orda hər yaz belə yanğınlar olur. Sən demə kəndlilər keçən ildən qalma quru otu yandırırlar, bundan da böyük yanğın törənir. Cinayətə görə saxlanan kəndlilərin bəziləri deyib ki, əgər külək qonşu kəndə tərəf əsəndə biz otu yandırmasaq sabah onlar külək bizə tərəf əsəndə yandıracaq. Kim qabağa düşdü məsələsidir.

Belə mənəvi deqradasiya yaşayan imperiyanın törəməsiyik. Ruslardan bizə qalan acı miras budur. Üstəlik, fikir versəniz bütün keçmiş sosialist düşərgəsinə də Rusiyanın münasibəti elə həmin Sibir mujiklərindən fərqlənmir. Hər yerdə "köhnə otu yandırıb" bir süni münaqişə ocağı düzəldiblər, xalqları bir-birinə qırdırırlar. Sonra isə guya yangınsöndürən sifətinə peyda olurlar.

# Ortaq təlimlərdən ortaq ordu quruculuğuna doğru




## Azərbaycan-Türkiyə möhtəşəm təlimləri başladı: düşmənə görk, havadarına ismarış

5 günlük hərbi təlimlərində türk hərbçiləri işğalçı qüvvələrə ən yaxın məsafədə manevrlər edəcəklər; ortaq təlimlərdən Rusiyaya çatan əsas mesaj: Moskva Azərbaycanla Türkiyəni həmişəlik itirə bilər, əgər...

**Bu gün - mayın 1-də Azərbaycan və Türkiyənin Silahlı Qüvvələrinin birgə taktiki təlimləri başlayır. Xəbər verdiyimiz kimi, 5 gün çəkəcək təlimlərə qatılmaq üçün Türkiyə ordusunun şəxsi heyəti hələ təxminən 10 gün öncədən Azərbaycana gəlib və "N" saylı hərbi hissədə yerləşib.**

Həmin hərbi hissəsinin cəbhə bölgəsinə yaxın olduğu ehtimal edilir. Yeni türk hərbçiləri, o cümlədən hava şahinləri - pilotlar erməni işğalçı qüvvələri ilə kifayət qədər yaxın məsafədə olacaqlar. Bu da Qarabağla bağlı hər hansı kritik situasiyada və fors-major vəziyyətlərdə Türkiyə-Azərbaycan sarsılmaz birliyini və müttəfiqliyinin növbəti parlaq nümayişi, düşmən ölkəyə aydın bir xəbərdarlıq ismarışı olacaq.

Bu xüsusda Türkiyə nümayəndə heyətinin rəhbəri, polkovnik Hakan Açıkgözun birgə təlimlərin əhəmiyyəti barədə dediyi sözlərini yada salmaq yerinə düşər. Türk zabit deyib: "Bu təlimlərdə qazanılan təcrübə iki ölkənin gələcək əməliyyat planlarına müsbət təsir göstərəcək. Təlimlərdə əsas məqsəd Azərbaycan və Türkiyə orduları arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırması, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır".

Qeyd edək ki, birgə təlimlərdə şəxsi heyətlə yanaşı, zirehli texnika, artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, habelə qruplaşmanın havadan mühafizəsi məqsədi ilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edir.

*****

Şübhə yox ki, bu il üçün ilk olan birgə təlimlər Azərbaycandan ötrü xüsusilə önəmli və qürurvericidir. Eyni zamanda ərazisinin 20%-i on illərdir işğal altında olan ölkəmiz üçün, Azərbaycan xalqı üçün, ordumuz üçün ruhlandırıcı bir hadisədir. Sülh danışıqlarının dalanda olduğu, müharibənin isə qapını kəsdirdiyi mürəkkəb və həssas bir dönəmdə Türkiyə kimi güclü və təcrübəli orduya malik qardaş bir ölkə ilə ortaq hərbi manevrlər ikiqat əhəmiyyət daşıyır; təkcə Silahlı Qüvvələrimizdə deyil, bütövlükdə xalqımızda özünə inamı möhkəmlədir. Paralel surətdə Ermənistan və havadarları üçün çəkindirici faktor rolu oynayır, Qarabağ məsələsində işğalçı tərəfi nəhayət ki, konstruktiv mövqe tutmağın zəruriliyi barədə bir daha ciddi düşünmək zorunda qoyur.

*****

Əlbəttə, daha yaxşı olardı ki, Azərbaycanla Türkiyə hərbi manevrlər keçirməklə yanaşı, Rusiya və Ermənistan kimi ortaq hərbi qruplaşma da yaratsın. Yəqin ki, zamanı çatanda bu da olacaq. Başqa sözlə desək, uzaq olmayan perspektivdə ortaq təlimlərin tədricən ortaq döyüş planlamalarına, vahid orduya gətirməsinin də şahidi ola bilərik. Bölgədə və onun ətrafında gedən qəliz və təhlükəli proseslər həm də bunu diktə edir.

Lakin vahid ordu heç də o demək deyil ki, o zaman Türkiyə və Rusiya Qarabağda, Güney Qafqazda qarşı-qarşıya gələ, toqquşa bilər. Əksinə, bölgədəki qüvvələr nisbətini, geosiyasi reallıqları ciddiyə alan Kreml o halda regional problemlərin dinc yolla həllinin vacibliyini başa düşüb də Ankara ilə daha sıx əməkdaşlığa can atacaq.

Hər halda müharibə Rusiyanın yaxın və orta perspektiv maraqlarına cavab vermir. Elə təkcə Türkiyə ilə Rusiya arasında on milyardlarla dollar iqtisadi anlaşma var və bu anlaşmalar öz reallaşmasını gözləyir ("Türk axını", Akkuyu AES layihəsi, S-400 raket sistemləri ilə bağlı nəzərdə tutulan sövdələşmə və s.)

Bu və digər səbəbdən Rusiya strateji tərəfdaş saydığı Türkiyə ilə Cənubi Qafqazda qarşı-qarşıya gəlməyi əslə arzulamır. Arzulamırsa, o zaman Kreml potensial müharibə vəd edən və Türkiyənin də ona qoşulması real olan Qarabağ probleminin həlli üçün nəhayət ki, qol çirmələyib hərəkətə keçməlidir.

Belə bir məqam, zaman artıq yetişib. Moskva bunu etməyəcəksə, o zaman Azərbaycan əsgəri edəcək və nəticə etibarilə də Moskva nəinki Azərbaycanı, Türkiyəni də həmişəlik itirəcək - çoxmilyardlıq iqtisadi qazancların itkisi də öz yerində. Hazırkı Azərbaycan-Türkiyə ortaq təlimlərindən Kremlin payına düşən əsas mesaj da elə bundan ibarətdir.

Bir sözlə, top hələ ki Rusiyanın meydanındadır. Lakin heç də həmişəlik yox. Ümid edək ki, Türkiyə-Azərbaycan birgə təlimlərinin davam etdiyi günlərdə - mayın 3-də Soçiyə gedəcək prezident Rəcəb Tayyib Ərdoğan həmkarı Vladimir Putinlə təkbətək görüşündə bu kimi mühüm detalları da Kreml başçısının diqqətinə çatdıracaq.

❑ Analitik xidmət




# Erməni lobbisindən hiyləgər gediş - valı dəyişdilər...

**Gözlənilən baş verdi. Fransadakı erməni lobbisi prezident seçkisinin ikinci turunda Emmanuel Makrona dəstək qərarı verdi. Halbuki əvvəl Le Penə dəstək verirdilər, ancaq ikinci turda qalib Emmanuel Makron olacaq. Ona görə də hiyləgər erməni lobbisi Le Peni yarı yolda buraxaraq qalibi seçdi.**

Axar.az xəbər verir ki, bu sözləri politoloq Elxan Şahinoğlu Fransada ultrasağçı və ermənipərəst açıqlamaları ilə seçilən Le Pendən erməni lobbisinin uzaqlaşmasını şərh edərkən deyib. Politoloq bildirib ki, Fransadakı erməni lobbisinin iki tanınmış nümayəndəsi - Ara Toranyan və Murad Papazyan Makrona göndərdikləri məktubda bunları qeyd ediblər: "Siz 24 apreldə Parisdə soyqırım abidəsini ziyarət etdiniz. Ayrıca, siz 24 apreli təqvimə daxil etməyi təklif etmisiniz. Ümid edirik ki, Siz soyqırımın tanınması işində fəal olacaqsınız".

Politoloq vurğulayıb ki, əslində Makronun erməni lobbisinin xüsusi dəstəyinə ehtiyacı yoxdur: "O, Fransadakı ermənilərin səslərinə gərək duymadan da prezident seçkisini öz xeyrinə rahat tamamlayacaq. Ancaq məsələ burasındadır ki, Fransadakı siyasətçilərin az qala hamısı ermənilərə nəvaziş göstərməyi özünün borcu sayır".

Fransada prezident seçkisinin ikinci turunun favoriti Makron sayılır. Onun ən azı 60 faiz səs toplayacağı sosial sorğularla təsdiqlənib. Le Pen isə səsini artırmaq niyyəti ilə fəaliyyətini davam etdirir. Ötən gün Le Penin lideri olduğu Milli Cəbhə "Qalx, Fransa" ilə koalisiya yaradıb.

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017

# Nazirlərin Moskva görüşündə müharibə motivi

## Hərbi ekspertə görə, belə görüşlər hiyləgər siyasətin tərkib hissəsidir və Azərbaycanı durdurmaq niyyəti güdür...

**Aprelin 28-də Moskvada Rusiya, Azərbaycan və Ermənistanın xarici işləri nazirləri Sergey Lavrov, Elmar Məmmədyarov və Edvard Nalbandyan arasında keçirilən üçtərəfli görüşün müsbət nəticələrinin olmaması geniş müzakirələr doğurub. XİN rəhbərlərinin görüşü indiyə qədərki çoxsaylı görüşlərdən heç nəyi ilə fərqlənmədi, ənənəvi xarakter daşıdı.**

Bu da müharibə ehtimallarının getdikcə artması barədə fikirlərin çoxalmasına səbəb oldu. Xüsusilə, əməliyyatların olması üçün əlverişli vaxtı, yeni yaz və yay fəsillərini önə çəkərək, Azərbaycan tərəfin işğal olunmuş torpaqlarını müharibə yolu ilə azad etmək üçün hərəkətə keçməli olduğu barədə fikirlər səslənir. Moskva görüşünün əslində müharibə anonsu verdiyi də qeyd olunur. Görüşdən sonra ölkəmizin XİN rəhbəri Elmar Məmmədyarov başda olmaqla, Azərbaycan tərəfin görüşün nəticələri barədə mövqeyi də bunu deməyə əsas verir.



Hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, Moskvada erməni tərəfin maraqlarına cavab verən bir görüş keçirilib: "Ermənilərin, xüsusilə onlara havadarlıq edən rusların çox böyük narahatçılığı var idi ki, Azərbaycan ötən ilki aprel hadisələrinin təkrarını həyata keçirə bilər. Ötən il ermənilərin hücumunu əks həmlə ilə dəfn edən ordumuzun danışıqlarda passivliyə, ermənilərin mövqeyini ifadə edən fəaliyyətə görə əməliyyatlara başlaya biləcəyi qorxusu düşmən ölkədə və Rusiyada var idi. Ona görə də bu görüşü təşkil etdilər. Çox təəssüflər olsun ki, Azərbaycan tərəfi erməni və rusların qurduğu bu tələyə düşür. Başa düşürəm ki, diplomatik yollarla hansısa səylər göstərmək lazımdır. Azərbaycanı durdurmaq, zamanı uzatmaq üçün bu cür görüşlər hiyləgər siyasətin tərkib hissəsidir. Artıq başa düşməliyik ki, belə mənasız görüşlər heç nəyi dəyişmir. Rusiyanın XİN rəhbərliyi müxtəlif cür oyunlar oynayır. Hər yola əl atılır ki, təki vaxt uzadılsın. Gün həftəni, həftə ayı, ay da illəri əvəz edir. Artıq səbrimiz çoxdan tükənib. Açığı, Elmar Məmmədyarovun son Moskva görüşündən narazılığımı bildirirəm. Ermənilərin Azərbaycan ərazisində yeni raket kompleksindən açdıqları atəşlə bağlı heç bir fikir səsləndirmədi. Minsk Qrupundan da heç bir açıqlama olmadı. Amma bir erməni əsgərin yaralanmasına dərhal reaksiya verirlər. Azərbaycan mənasız görüşlərdən birmənalı şəkildə uzaqlaşmalıdır. Ötən ilin aprelində hər kəs çalışdı ki, Rusiya başda olmaqla, Azərbaycanı aktiv fəaliyyətdən çəkindirsinlər. Ölkəmiz ümid edirdi ki, erməni tərəf başa salınacaq, amma bunun şahidi olmadıq, əksinə Rusiya ermənilərə silahlar verdi, Amerikanın ikibaşlı oyun oynadığı üzə çıxdı. Verilən avadanlıq ermənilərin Azərbaycan tərəfini necə asanlıqla həm gecə, həm də gündüz izlədikləri sübut olundu. Moskva görüşü hiylənin bir davamı idi. Rusiya imicini qoruyur, Amerikaya obraz lazımdır, o zaman Azərbaycan yolunu tapmalıdır. Ötən ilin aprelindəki 4 günlük savaş göstərdi ki, bu münaqişənin yeganə həlli Azərbaycan ordusunun ermənilərə yerini göstərməkdən keçir. Rusiyadan çəkinmək lazım deyil. Bizim bəzi siyasilər və hərbiçilərin canında rus xofu var. Bu xofdan qurtarmaq lazımdır. Torpaq bizimdir, ata-babalarımızın məzarları olan ərazilərimizi azad etməyə kimsə bizə qadağa qoya bilməz. Bu danışıqları bitirmək lazımdır, bu danışıqlar indiyə qədər Azərbaycana bir santimetr belə torpaq qazandırmayıb".

Hərbi ekspert əməliyyat ehtimallarından da söz açdı: "Əslində apreldə ermənilər əməliyyatların olacağından ehtiyatlanırdılar. Onlarda məlumat var idi ki, Azərbaycan aprelin sonlarına doğru əməliyyatlara başlaya bilər. Bizdə də bu istiqamətdə bəzi ehtimallar var idi. Müdafiə Nazirliyinin rəhbərlərinin tez-tez cəbhə bölgəsində olması, hərbi təlimlərin keçirilməsi ümidlər yaratmışdı. Təəssüflər olsun ki, bəzi əlverişli məqamları vaxt etibarı ilə əldən verdik. Amma qarşıdan gələn aylar da əlverişlidir. Lakin düşünürəm ki, hərbçi üçün vaxt əhəmiyyətli olmamalıdır. Onlar Azərbaycan ordusunun növbəti dəfə gücünü görməyincə, nə danışıqları intensivləşdirməyəcəklər, nə də torpaqlarımızın azad edilməsi üçün mühüm addım atmayacaqlar. Ərazi bütövlüyümüzün təmin olunmasının iki yolu var - ya müharibə ya da sülh. Üçüncü yol yoxdur. 20 ildən artıq müddətdə sülh yolu ilə nəyəsə nail olunmayıbsa, müharibə variantından başqa yol qalmır. Müharibə qaçılmazdır, mütləq olacaq. Onun da vaxtını yəqin ölkə rəhbəri bilir. Nə qədər tez bu məsələni həll etsək, bir o qədər yaxşıdır. Ötən ildəki 4 günlük savaşdan sonra işğal olunmuş ərazilərdən çoxsaylı ermənilər müharibə qorxusu ilə köç etdilər. Növbəti həmlədən sonra onlar qaçacaqlar. Azərbaycan heç bir halda ərazilərini güzəştə getmək fikrində deyil. Beynəlxalq qurumlar da yaxşı bilirlər ki, müharibə tələbini Azərbaycan vətəndaşları hər an dilə gətirirlər".

❑ **Cavanşir ABBASLI**

# Türkiyə-Avropa qarşıdurmasında Azərbaycan

## Qardaş ölkə AŞPA-dan çıxsa, yerimiz hara olacaq? **Zahid Oruc:** "Həmişəki kimi, Türkiyənin yanında olacağıq..."

**Türkiyə ilə Avropa arasında gərginlik günbəgün artır. Bu gərginliyi daha da kəskinləşdirən məqam isə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) məlum qərarı oldu. Ekspertlərə görə, Türkiyəyə qarşı atılan bu kimi addımlar ilk deyil. Bəllidir ki, Azərbaycanın AŞPA ilə sıx əlaqələri mövcuddur. Bəs belə olan halda rəsmi Bakının mövqeyi necə olacaq, Türkiyə qurumdan çıxarsa, Azərbaycan hansı qərarı verəcək?**

Deputat Zahid Oruc öncə bildirdi ki, Türkiyə-Avropa Şurasının münasibətlərinin gərginləşməsi qətiyyən yalnız son referendumla bağlı deyil: "Yaxud bu, Ərdoğan hakimiyyətinin özünü bir sıra məqamlarda Qərbin maraqlarına qarşı qoyması deyil. Real olaraq uzun on illər ərzində Avropa təchizatları, həmçinin bəlli siyasi mərkəzlər Türkiyəni içəridən yönləndirmişlər. Bunlar konspirativ nəzəriyyələr, sadəcə hansısa lojaların ətrafında yaradılmış mistik baxışların qənaəti deyil, gerçək hadisələrdir və üzərilərindən məxfilik qrifləri götürülüb. Ümumilikdə yanaşanda Avropa Şurasının Türkiyəni monitorinq altına alması açıq-aşkar bu ölkənin həm xarici, həm də daxili siyasətini cilovlamaq, onu öz diktəsi altına gətirmək niyyətindən doğur. Bu isə konkret olaraq hazırkı hakimiyyətə qarşı təzyiqə çevrilir. Şübhəsiz ki, burada başqa bir məqam Türkiyənin müstəqil regional və beynəlxalq rolunu kiçiltmək, onu zərbəyə məruz qoymaq niyyətidir. Mahiyyətcə bu, Avropa Şurasını qeyd etdiyimiz siyasi mərkəzlərin əlində dəyənəyə çevirir. Onu çox ustalıqla, müxtəlif maraq qruplarının təmsilçiləri vasitəsilə ayrı-ayrı dövlətlərin üzərinə yönəldirlər. Bu, faktiki olaraq kifayət qədər məsləhətçi, ümumi nəzəri tövsiyələr verən bir qurumu, açıq şəkildə məhkəmə təchizatına çevirməkdir. Biz, sovetlər dönəmində Kremlin paytaxt statusundan başqa Roma imperiyasına xas olan diktəsini görmüşük. İndi sanki sovetlər dönəminin Kremlini ayrı-ayrı hallarda Strasburq təkrarlamış olur. Burada başqa bir önəmli məqam da odur ki, Türkiyə hazırda bir neçə cəbhədə savaş aparır. Bir tərəfdən onun yaxın sərhədlərində uzun on illərdir ki, davam edən müharibə mövcuddur və bu, özünəməxsus təhlükəsizlik tədbirləri, hərbi əməliyyatlar, gerçək savaş tələb edir. İkinci tərəfdən isə Türkiyənin özünün əleyhinə bəlli terror qrupları fəaliyyət aparmaqdadırlar ki, onlara da qarşı mübarizə gedir. Ötən günlərdə müxtəlif informasiya vasitələrində Amerikanın dəniz qüvvələrinin Suriya içərisindəki ayrı-ayrı ərazilərdə terror birləşmələri ilə yanaşı dayanaraq, guya hansısa hədəflərə qarşı mübarizəsindən bəhs olunurdu. Bu, o günlərə təsadüf edirdi ki, Türkiyə ordusu həmin terror qruplaşmalarına (PKK və uzantıları) qarşı ciddi zərbələr endirirdi. Türkiyə, bir tərəfdən terror qruplarına qarşı savaş apararkən, digər tərəfdən isə uğursuz çevrilişə cəhd edib, özlərini ifşa edən Fətullah Gülən tərəfdarlarını zərərsizləşdirildiyi dönəmdə, beynəlxalq qrumların bu cür sərt təzyiqləri ilə üz-üzə qalıb. Bu mənada Strasburq və Brüsselin bir addımlığında olan PKK-nın mənzil qərargahı və onlara verilən tribunalar, göstərilən maliyyə yardımları onu düşünməyə vadar edir ki, Qərb Türkiyə əleyhinə terroru himayə edib, onlara köməklik göstərir".



Z. Oruc Azərbaycan hər zamankı kimi Türkiyənin yanında olacağına əmindir: "Çox yaxın bir zamanlarda Avropa Şurası nazirləri tərəfindən qeyd olunan qərar qəbul oluna bilər. Bu isə o deməkdir ki, həmin areala daxil olan ölkələrin siyasətində məlum mövqe öz əksini tapacaq. Çox qısa bir zamanda Avropa Birliyi Türkiyə ilə iqtisadi əlaqələrə də yenidən baxılması və bir sıra münasibətlərin dayandırılması mövqeyini işləyib hazırlayıb. Bundan ötrü yeni bir hesabat da hazırlanıb ki, onun da artıq üzərindən məxfilik çıxıb və məlumatlar mətbuata sızıb. Bütövlükdə götürdükdə bu, Azərbaycanın da keçmişdə yaşadığı proseslərin demək olar ki, eynisidir. Daha böyük miqyasda isə Türkiyənin varlığında təkrar olunmaqdadır. Düşünürəm ki, biz Türkiyə ilə həmrəylik göstərərkən, "Türkiyəsiz Avropa yoxdur" çağırışını verərkən, bu məsələyə dirənişimizi də bütün rəsmi səviyyədə göstərmişik və proses davam edəcək. Bu günlərdə AŞPA baş katibi Pedro Aqramuntun Suriyaya daxili qaydaları gözləmədən getməsi məsələsini mühakimə edib, onunla bağlı ciddi bir siyasi böhran vəziyyəti yaranıb. Bu məsələ ətrafında Avropa Şurasının funksionallığı ciddi şübhə altına düşüb. Məsələnin başqa bir məqamına baxaq. Əgər Aqramunt doğrudan da parlamentin hər hansı bir müddəaları əleyhinə addım atıbsa, uzun on illər boyu Avropa Parlamentinin, Avropa Birliyinin Qarabağa hansı icazə altında gəldiyini əsaslandırmaq mümkündürmü? Bəs birinci şəxsə qarşı bu cür qəddar davranışları o zaman niyə istəmirdilər. Belə çıxır ki, həmin qurumda separatizm bölgəsini ayağa qaldırmaq, Azərbaycan əleyhinə fəaliyyət aparmaq üçün "xeyir-dua" var, ancaq Rusiya və İranın qüvvələri olduğu yerdə bu keçmir. Bu məqam Avropanın bəlli prinsiplərinin elə özü tərəfindən də tapdalanması deməkdir. Şübhəsiz ki, qeyd edilən qərar Azərbaycanla Türkiyənin birgəliyini daha da möhkəmləndirərək, bu cür davranışlara qarşı mübarizəni dərinləşdirəcək. Düşünürəm ki, Azərbaycan parlamentində bu məsələ ilə bağlı çox sərt reaksiyalar olacaq. Düşünürəm ki, burada hər zaman olduğu kimi sinxronlaşdırılmış fəaliyyət davam edəcək. Mümkün müxtəlif addımlar atıla bilər. Ehtimal edirəm ki, daha effektiv olması üçün orada, səsvermə proseslərində protest mövqeyimizi göstərmək üçün ayrı-ayrı hallarda biz də səsvermə prosesindən özümüzü kənarda saxlaya bilərik. Bu, bir elementdir və təsir mexanizmidir. Söhbət qətiyyən fəaliyyətin dayandırılmasından gedə bilməz. Çünki biz, o meydanı başqa qüvvələrin ixtiyarına da verə bilmərik. Burada ağıllı qərarlar alınmalıdır".

Deputat onu da qeyd edib ki Avropa ilə Türkiyənin münasibətləri tam pozulmayacaq: "Avropa tərəfinin istədiyi birinci növbədə idarə olunan Türkiyə modelidir, ikincisi bu dövlətin içərisində onu daim yönləndirməyə imkan verən mexanizmlərin əldən verilməməsidir. Eyni zamanda Avropa tərəfindən Türkiyənin regional və müstəqil siyasəti qəbuledilməzdir. Nə Avropa Türkiyəsiz, nə də Türkiyə Avropasız siyasətini davam etdirə bilməyəcək. Türkiyə hər hansı bir islam birliyi liderliyinə can atmaqla Avropa arealından qopub, kənarlaşması deyil. Şübhəsiz ki, bir qədər Türkiyəyə iqtisadi zərbə vurub, xalqı hakimiyyətə qarşı qaldırmağa çalışacaqlar. Ancaq düşünürəm ki, bütövlükdə misal üçün, Rusiya kimi sanksiyalara məruz qoyulacaq. Bu, ağıla gəlsə də, reallıqda tətbiqi mümkün deyil".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017



# Natavan Mirvətova MTN generalının cinayət işi üzrə dindirilib

## “Malik Mustafayevin intihar etdiyini işçilərdən eşitmişəm”

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyevin cinayət işi üzrə həmin nazirliyin Əməliyyat-Texniki İdarənin rəisi, general-mayor Natavan Mirvətova şahid qismində dindirilib.**

APA-nın məlumatına görə, Natavan Mirvətova ibtidai istintaq zamanı ifadəsində bildirib ki, MTN əməkdaşı, mərhum Malik Mustafayevi MTN-in Xaçmaz rayon şöbəsinin rəisi vəzifəsində işlədiyi vaxtdan tanıyıb: “Malik Mustafayev hələ nazirliyin 5-ci baş idarəsində xidmət edən zaman Kadrlar İdarəsindən mənimlə əlaqə saxlayaraq onu rəisi olduğum idarəyə işə götürə bilib-bilməyəcəyim barədə soruşurdular. Mən də buna razılıq verdim. Malik Mustafayevin özü ilə də bu barədə söhbət etdim. Lakin sonradan eşitdim ki, Malik Mustafayev digər idarəyə təyinat alıb”.

Natavan Mirvətova qeyd edib ki, 3 noyabr 2014-cü il tarixdə Malik Mustafayevin intihar etməsi barədə idarədə işçilərdən eşidib: “Həmin zaman eşitdim ki, Malik Mustafayev Nazirliyin Situasiya Mərkəzinin rəis müavini vəzifəsində işləyib və son dövrlərdə həmin vəzifədən sərəncama göndərilib. Həmin vaxt mənə məlum oldu ki, Malik Mustafayevin qardaşının Milli Təhlükəsizlik Nazirliyi ilə hansısa problemi olub. Bildiyimə görə, qardaşının Kərəm Həsənovla hansısa problemi olub, buna görə onu Milli Təhlükəsizlik Nazirliyinə dəvət edərək söhbət aparıblar. Malik Mustafayevin qardaşı mətbuatda Kərəm Həsənovun əleyhinə hansısa məlumatlar yazıb. Bu isə Malik Mustafayevə pis təsir edib. Malik Mustafayevin qardaşı Mətləb Mustafayevi tanımamışam. Onun barəsində istintaq baş idarəsində cinayət işi olması barədə məlumatım olmayıb”.

Natavan Mirvətova bildirib ki, rəisi olduğu idarənin 5-ci şöbəsində Mətləb Mustafayevin cinayət işi üzrə silah tədqiq olunsa da, həmin zaman Mətləb Mustafayevin Malik Mustafayevin qardaşı olması barədə məlumatı olmayıb: “Bu barədə mənə nə istintaq baş idarəsindən, nə də 5-ci şöbədən məlumat verilib. İstintaq baş idarəsinin rəisi Mövlam Şıxəliyev mənə tədqiq olunması üçün məktubla silah-sursat, əl-barmaq izləri göndərib. Mən də həmin predmetləri tədqiq olunması üçün 5-ci şöbəyə həvalə edərək araşdırmanın yekununa dair arayışı və həmin predmetləri geri qaytarmışam. Deyilən predmetlərin qaytarılma tarixi kimi məktubda 11 sentyabr 2014-cu il kimi qeyd olunubsa, çox güman ki, həmin tarixdə də yekun arayış tərtib olunaraq göndərilib. Rəisi olduğum idarədə gecikmə halları və ya geri tarixlə sənəd tərtibatı halları olmayıb”.

MTN-in Antiterror Mərkəzinin rəisi olmuş Elçin Quliyevə Cinayət Məcəlləsinin 145.3-cü (qanunsuz azadlıqdan məhrum etməklə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olma), 181.3.1-ci (mütəşəkkil dəstə tərəfindən quldurluq törətmək), 181.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə quldurluq törətmək), 182.3.1-ci (mütəşəkkil dəstə tərəfindən hədə-qorxu yolu ilə tələb etmə), 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 302.2-ci (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma, eyni əməllər informasiyanın gizli yolla götürülməsi üçün nəzərdə tutulan xüsusi texniki vasitələrdən istifadə edilməklə törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmək), 309.2-ci (vəzifə səlahiyyətlərini aşmaqla, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədildikdə və ya ağır nəticələrə səbəb olma), 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən rüşvət alma), 311.3.2-ci (təkrar rüşvət alma), 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan olunub.

Digər təqsirləndirilən şəxslər də eyni maddələrlə ittiham edilirlər.

**Dünən Heydər Əliyev Fondunun təşəbbüsü ilə növbəti Bakı Marafonu keçirilib. Azvision.az bildirir ki, marafonda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, təhsil naziri Mikayıl Cabbarov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev, Baş nazirin müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər də iştirak ediblər.**

# Arzu Əliyeva, Mədət Quliyev və Yaqub Eyyubov “Bakı Marafonu”nda qaçdılar







“Bakı Marafonu xalqımız üçün çox vacib tədbirdir”. Trend bildirir ki, bunu marafonda iştirak edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev deyib. M.Quliyev bu tədbirin Heydər Əlivev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən ikinci dəfədir təşkil olunduğunu vurğulayıb: “Bu tədbir xalqımız üçün çox vacib tədbirdir. Bakı Marafonu insanları, o cümlədən gəncləri sağlam həyat tərzi keçirməyə çağırır”.




Qeyd edək ki, marafon Dənizkənarı Bulvar İdarəsi və Bakı Olimpiya Stadionunun dəstəyi ilə təşkil olunur. Layihənin icraçısı “Sport Marketing Group” (SMG) şirkətidir. Dövlət Bayrağı Meydanından start götürən marafon Bakı Olimpiya Stadionuna qədər 21 kilometr məsafəni əhatə edib.

# Siqaretin törətdiyi qorxulu bəla: XOAX xəstəliyi...



**Xroniki obstruktiv ağciyər xəstəliyinin qısa adı XOAX adlandırılır. Bu xəstəlik əsasən siqaret çəkməklə və havadakı zərərli qazlarla ağciyərdə meydana gəlir. Əsasən də davamlı siqaret aludəçilərində daha çox rast gəlinə bilən bir xəstəlikdir. Musavat.com XOAX adlı bu bəlalı xəstəlik haqqında bilməniz lazım olan məlumatları təqdim edir.**

Qeyd etdiyimiz kimi, bu xəstəlik ən çox davamlı olaraq siqaret çəkən insanlarda rast gəlinir. Siqaretin içindəki zərərli maddələr ağciyərdəki hava kisələrinə dolur. İllərboyu siqaret çəkənlərdə artıq ağciyərin hava kisələrinin quruluşu pozulmağa başlayır.

Xəstəli iki fərqli şəkildə ortaya çıxa bilər. Bunlardan biri də Emfizemadır. Emfizem ağciyərin normal işləmə qabiliyyətini sıradan çıxarır. Və ağciyər elastik bir quruluşa sahib olub, genişlənib-daralma xüsusiyyətini itirir. Davamlı olaraq şişmiş vəziyyətdə qalan hava kisələri alınan nəfəsin geri qaytarılmasında çətinlik çəkər. Və nəfəs darlığı, sinə ağrıları artmağa başlayır. Bu, əsasən 45 yaşdan yuxarı insanlarda aşkarlanır.

XOAX xəstəliyi xroniki bronxit şəklində də özün büruzə verə bilir. Emfizemadan fərqli olaraq, xroniki bronxit xəstələri hava kisələrinin fəaliyyətini itirmir, lakin ağciyərdəki bütün kiçik və böyük hava yolları zərərli maddələrlə dolur. Bu da ağciyər tıxanıqlığı və qatı öskürək yaratmağa başlayır.

Emfizema A tipi, Bronxit B tipi olaraq bilinir və bu iki tip XOAX-ın ən çox yayılan növləridir. Bəzi hallarda isə bu iki tipin bir yerdə meydana gəlməsi ilə üçüncü - yəni C tipi meydana gəlir. XOAX-ın C tipi öskürəklə birlikdə qanın gəlməsidir. Və bu, XOAX xəstəliyinin ən ağır növüdür.

Ümumiyyətcə XOAX çox nadir hallarda və çox gec-gec ortaya çıxan bir xəstəlikdir. Lakin bu xəstəliyin ölümlə sonlanan nəticələri də olur. Çox təəssüf ki, bəzi insanlar bu xəstəliyə siqaret çəkmədən də yoluxa bilir. Buna təsir edən isə genetikadır. Ağciyərə dəyən ziyan çox gec özünü nizamlayır. Uzun bir müddət siqaret çəkib, daha sonra siqareti tərgidən insanlarda belə, bir neçə il sonra XOAX xəstəliyinin aşkarlanması mümkündür.

XOAX diaqnozu qoyulan xəstələrə elə həmin günü siqareti tərgitmək daha məsləhətlidir. Bu xəstəlikdə insan həyatı üçün hər bir saniyə belə, önəmli rol oynayır. Həkimlərin tətbiq etdiyi müalicə tam şəkildə alınmalıdır. Ağır XOAX xəstələrini isə yalnız oksigen müalicəsi ilə sağaltmaq mümkündür. Bu xəstəliyə tutulmamaq üçün özünüzə edə biləcəyiniz ən böyük yaxşılıq siqaret çəkməmək, çəkirsinizsə, tərgitməkdir.

❑ **Turan ORUC**

# Qurban Qurbanov “Qarabağ”ın yay planlarını açıqladı



**“Çempionatın son matçı olsa da, diqqətli oynadıq. Maraqlı görüş alındı. "Neftçi"də bu il alınmadı. Onlara uğur arzulayıram. Həm oyundan, həm nəticədən razı qaldım". Apasport.az saytının məlumatına görə, bu sözləri “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov deyib.**

Azərbaycan Premyer Liqasının son turunda “Neftçi” ilə qarşılaşan “Qarabağ” 2:1 hesablı qələbəyə sevinib. Çempionluğu erkən təmin etmiş ağdamlıların çalışdırıcısı komandanın yay planlarından danışıb.

- Toplanışa nə vaxt başlayacaqsız?

- İyunun 1-də yığışacağıq Bakıda. Burda hazırlıq keçəndən sonra Avstriyaya yollanacağıq. Hələ konkret gün təyin edilməyib.

- Start heyətiniz təəccüblü oldu. Əsas oyunçulara şans verdiniz...

- Mən əvvəldən də demişdim ki, son oyunlarda da əsas heyətə şans verəcəm. Zədəyə görə narahat deyildim.

- Rəşad Sadıqovun əvəzlənməsi nə ilə bağlı idi?

- Zədə almayıb. Sadəcə yorğunluq var idi. Ona görə əvəzlədim.

- Kubok öncəsi psixoloji üstünlük sizdədimi?

- Kubok tam fərqlidi. Buna görə də deməzdim ki, psixoloji üstünlük bizdədi.

- Toplanış zamanı neçə yoxlama oyunu keçirməyi düşünürsüz?

- Minimum 4 oyun. Avstriyada yaxşı komandalar olur. Beş görüş keçirsək, daha yaxşı olar.

- Abbas Hüseynov və Təmkin Xəlilzadəni transfer etdiyiniz deyilir...

- Abbasla maraqlanmışıq, yaxın günlərdə açıqlanar. Amma Təmkinlə yox. Onu transfer etmək ehtimalımız azdı.

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycan iki işğalçı ilə üz-üzə - böyük sülhü əlçatmaz edən tək səbəb

## Bakı problemin hərbi yolla həlli üçün ən əlverişli fürsəti gözləmək zorundadır; **erməni analitik:** "Problemin dinc nizamlanması mümkünsüzdür, çünki..."

**Moskvada ötən həftəsonu Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşü də nəticəsiz başa çatdı. Əslində gözlənilən idi. Çünki sülh prosesinə real dinamika verməli olan əsas vasitəçi dövlətin - Rusiyanın fəallığı gözə dəymirdi.**

Başqa sözlə, nazirlərin Moskva təmasının hansısa nəticə verməsi üçün obyektiv zəmin formalaşmamışdı. Bu, olsa-olsa, müharibə riskini bir azca azaltmaq üçün rəsmi Moskvanın görüş xətrinə görüş təşəbbüsü idi. Necə deyərlər, Qarabağa dair daha bir nəticəsiz tədbirə "quş" qoyuldu. Bu, o deməkdir ki, sülh danışıqlarında ötən ilin iyunundan - prezidentlərin Sankt-Peterburq görüşündən sonra durğunluq davam edir.

Davam etdikcə də müharibə ehtimalı öz aktuallığını saxlayır. Konfliktin həllinin müstəsna olaraq, güc yolu ilə mümkünlüyünə inam sürətlə artır. Üçüncü on illikdir əzəli torpaqları işğal altında olan Azərbaycanda bu inam daha sürətlə böyüməkdədir.

***

Maraqlıdır ki, erməni ekspert çevrələrində də Qarabağ konfliktinin sülh yolu ilə nizama salınmasına inananlar çox deyil. Bu xüsusda 1 in.am nəşrinin şərhçisi Aram Amatuni hesab edir ki, problemin hərbi yolla həllinin olmadığı haqda yayılmış ritorikaya rəğmən, real siyasət rejimində hamıya aydındır ki, problem məhz hərbi yolla çözülə bilər.

"Yəni o vaxt çözülə bilər ki, münaqişə tərəflərindən biri digər tərəfdən hərbi məğlubiyyətə uğradılacaq. Əks halda dərin anlamda problemin məntiqi də belədir ki, 20 illik sülh prosesi ikinci fikrə sadəcə olaraq, yer saxlamayıb. Ən azı, daha iki on illik müddətdə istər erməni, istərsə də Azərbaycan tərəfi üçün nizamlamanın təklif edilən hər hansı güzəştli variantı məqbul olmayacaq - müxtəlif obyektiv və subyektiv səbəblərdən" - Amatuni yazıb.




Musavat.com-un məlumatına görə, erməni analitikin fikrincə, deməli, münaqişənin nizamlanması üçün bu nizamlama tərəflərdən birinin qələbəsi, digərinin isə məğlubiyyəti ilə başa çatmalıdır. "Mahiyyət etibarilə də nizamlama adlandırılan proses - məhz bu prosesin başa çatması deməkdir. Ancaq aprel müharibəsi göstərdi ki, konfliktin bitməsi və ya hərbi variant üzrə həlli mümkün deyil, ona görə ki, tərəflərdən heç biri digəri üzərində qələbə çalmaq və onu məğlub etmək iqtidarında deyil, xüsusən də status-kvo sərf etməyən tərəf Azərbaycan", - deyə siyasi şərhçi qeyd edib.

***

Ancaq erməni şərhçinin sonuncu qənaəti ilə razılaşmaq çətindir. Məsələ ondadır ki, - bunu erməni tərəfi də yaxşı bilir, - Azərbaycan nəinki hərbi qüdrəti, eləcə də iqtisadi və insani potensialı da işğalçı ölkədən üstündür və Rusiya amili olmazsa, erməni hərbi birləşmələrinin işğal edilmiş ərazilərdən silah gücünə çıxarılması çox zaman ala bilməz. Yəni münaqişə tərəflərindən birinin - məhz Ermənistanın hərbi məğlubiyyəti ilə problemə son qoyular.

İş də ondadır ki, Azərbaycan təkcə Ermənistanın yox, həm də Rusiyanın hərbi birləşmələri ilə, bir işğalçı ilə deyil, iki işğalçı ilə qabaq-qənşərdir. Rəsmi İrəvanı arxayın salan, onu sülh danışıqlarını sabotaj etməyə həvəsləndirən əsas amil də budur. Odur ki, dinc həll yollarının effekt verməndiyini nəzərə alan Azərbaycan Rusiya amili ilə bağlı ən əlverişli məqam-fürsəti səbirlə gözləməyə məcburdur.

İndilikdə isə Azərbaycan, sözsüz ki, təcavüzkar üzərində əzici hərbi üstünlüyünü təmin eləmək üçün gərəkənləri edəcək. Buna Ermənistandan fərqli olaraq, bizim iqtisadi potensialımız da imkan verir. Ən əsası, Azərbaycan kasıb və sürətlə boşalan Ermənistanı bahalı silahlanma yarışına cəlb eləməklə onun olan-qalan iqtisadiyyatını da çökdürməyi hədəf almalıdır.

***

Bu arada işğalçı ölkənin rəhbərliyi, Müdafiə Nazirliyi çağırışçı problemi yaşayan erməni ordusunu canlı qüvvə sarıdan komplektləşdirmək üçün alternativ yollar axtarışına çıxıb. Gənclər ən müxtəlif bəhanələrlə orduya, daha doğrusu, işğal altındakı ərazilərdə ucuz ölümə şirnikləndirilir. Gerçəkdən də erməni əsgərlərinin Azərbaycan torpaqlarında, Ağdamda, Füzulidə nə iti azıb ki, burada havayı ölümə də tuş gəlsinlər?

İrəvandakı Milli və Strateji Tədqiqatlar Mərkəzinin direktoru Manvel Sərkisyan müdafiə naziri Viqen Sərkisyanın bu qəbildən yaxınlarda irəli sürdüyü "millət-ordu" konsepsiyasına şübhə ilə yanaşır. Musavat.com-un məlumatına görə, politoloq deyib: "Bizdə cəbhə xəttində hansısa yeni situasiya haqda çox danışırlar. Deyirlər ki, rəqib daima silahdan istifadə edir və bizim əsgərlərimiz həlak olur. Deyirlər ki, bu, olduqca ciddi problemdir və bu haqda düşünmək lazımdır. Belə bir şey olmamalıdır. Sərhədlərin möhkəmləndirilməsinin heç bir əhəmiyyəti yoxdur. Başqa, daha sadə həqiqət var: 18 yaşlı oğlan uşağı, üstəlik, kasıb ailədən olan uşaq sərhədə göndərilir və orada təhlükə altına düşür. O, ön cəbhəyə getməməlidir. Problem bundadır. Ön cəbhəyə yalnız istəyi olanlar göndərilməlidir. İstənilən xalqda, əgər qanunla normal şərait yaradılıbsa, insanlar var ki, belə riskli hərbi xidmətə razı olur. Yəni insan özü seçir. Söhbət bir neçə min insandan gedir. Əgər bu qəbildən aktual məsələlər həll olunmursa, bunun yerinə başqa təkliflər gəlirsə - 3 illik hərbi xidmət əvəzinə pul və s. - demək, burada başqa məqsədlər güdülür".

***

Sərkisyanın dedikləri əslində bir daha Ermənistanda orduya çağırışçı probleminin nə dərəcədə kəskin şəkil aldığını bariz təsdiq edir. Yoxsa ki, indi də erməni gənclərini şirnikləndirmək üçün "ordu-xalq" konsepsiyası ortaya atılmazdı. Bütün bunlar obrazlı ifadə eləsək, suda boğulanın saman çöpündən yapışması kimi bir şeydir.

Nə qədər ki, erməni xalqı Azərbaycanla açıq hərbi qarşıdurmanın perspektivsizliyinə əminlik hasil etməyib, o vaxta kimi də onun canlı itkiləri azalmayacaq. Ağır maddi, sosial-iqtisadi məhrumiyyətlər, ölkənin sürətlə boşalması da öz yerində.



# "Ermənistanın belə silahları vardısa, döyüşü niyə uduzurdu?" - londonlu təhlilçi

**"Əgər erməni tərəfinə Azərbaycanın aldığı silahlara bərabər silahlar və hərbi texnika verilirdisə, o zaman nəyə görə erməni tərəfi döyüşü uduzdu?" Bu sualla Londonda mənzillənmiş analitik Treysi Cerman Ermənistanın "168 jam" qəzetinə açıqlamasında çıxış edib (Virtualaz.org).**

Onun sözlərinə görə, erməni tərəfinin Azərbaycanın ancaq İsraildən aldığı hərbi texnikada üstünlüyünün olduğu haqda dedikləri də həqiqətə uyğun deyil. Çünki Azərbaycana başqa miqyasda və keyfiyyətdə silah-texnika verirlər, Ermənistana isə başqa.

"Mən yada salıram ki, Ermənistan prezidenti Serj Sərkisyan ötən ilin aprel günlərində Berlində demişdi ki, erməni tərəfi 80-ci illərin silahları ilə döyüşür. Bu da mahiyyətcə o deməkdir ki, Rusiya Ermənistana ucuz qiymətə köhnə, işlənmiş texnika verir. Azərbaycana isə bazar qiymətlərinə ən yeni silahlar satılır. Azərbaycanın müdafiə qabiliyyətində əsas amil bax budur" - londonlu analitik deyib.

Cerman Rusiya ekspertlərinin Azərbaycana və Ermənistana silah təchizatı zamanı balansı gözlədiyi haqda dediklərinə inanmır. "Rusiya yalnız ötən ilin aprel döyüşlərindən sonra boşluğu doldurmağa çalışdı və Ermənistana "İsgəndər"lər verdi. Müəyyən təşəbbüslər göstərdi".

Xatırladaq ki, aprelin 26-da Rusiyadan Azərbaycana gəmilərlə yeni silah və texnika gətirilib. Müdafiə Nazirliyi Rusiyadan gətirilən yeni silah-texnika partiyasından ancaq BTR-82A zirehli transportyorlarını nümayiş etdirib. Qalan silahların nədən ibarət olduğu açıqlanmayıb. Azərbaycanın Rusiyadan növbəti dəfə yeni silahlar alması Ermənistanda xeyli pərtlik yaradıb.

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017



# "Ginnesin rekordlar kitabı"na düşən tanınmış Azərbaycan rəssamı haqda bilmədiklərimiz

## Vatikanda sərgisi keçirilən soydaşımızın rəsm əsəri Bakıda niyə təpiklənmişdi...

**Moskvanın enerjisi sıxıcıdır. Şəhər adamı qucaqlamır, sıxır. Bu diskomfortu azaltmağın tək yolu mədəniyyət ortamı bulmaq, sənət söhbətlərində reallıqdan azca da olsa, uzaqlaşmaqdı. Azərbaycanın əməkdar rəssamı, indi Almaniyada yaşayan Əşrəf Heybətovun Moskvada olduğunu öyrənəndə sevindim.**

Rusiya paytaxtında onun bir çox işlərini görmək mümkündür. Ünlü "Bakı" restoranını da başdan-başa onun əsərləri bəzəyir. Söhbətə məkan kimi onun Moskvadakı mənzilinin 2 addımlığındakı tarixi Yeliseyev mağazasındakı kiçik kafeni seçdik.

Tanımayanlar üçün Əşrəf Heybətovun qısa özkeçmişi: 1951-ci ildə Bakıda doğulub. 1979-cu ildə İncəsənət İnstitutunu bitirib. 1980-cı ildə Moskvada ünlü rəssam Zurab Seretelinin komandasında çalışmağa başlayıb. 1995-ci ildə Almaniyaya köçüb. YUNESKO-nun Beynəlxalq Rəssamlar Federasiyasının üzvüdür, Almaniyadakı "Bakı" Mədəniyyət Cəmiyyətinin sədridir. Rusiya Rəssamlar Akademiyasının həqiqi üzvü, Azərbaycanın əməkdar rəssamıdır. Vatikanda sərgisi açılan ilk Azərbaycan rəssamıdır. Avropanın bir sıra şəhərlərində sərgiləri keçirilib.

***- Əşrəf bəy, necə oldu getdiniz Azərbaycandan?***

- 1980-cı ildə Moskvaya dəvətlə gəldim. 15 il burada yaşadım, sonra Almaniya dönəmi başladı. Darıxanda gəlirəm Bakıya. Hər yay Şüvəlanda, bağda dincəlirəm, çəkirəm...

***- Ünlü olmaq şans məsələsidir, ya çalışqanlıq?***

- Hər ikisi. Yoluma hər zaman yaxşı insanlar çıxardığı üçün Tanrıya minnətdaram. Ali məktəbi təzə bitirmişdim, yenicə tanınmağa başlayan gənc rəssam idim, Tahir Salahovun diqqətini çəkdim. O, sənətdə mənə çox dayaq oldu, tanınmağım üçün çox iş gördü. Belə ünlü sənət adamının, üstəlik ictimai xadimin himayəsində olmaq şansı hər kəsdə olmur. Tahir Salahov məni Moskvada Sovetlər Birliyinin ən ünlü rəssamlarından Zurab Sereteliyə təqdim elədi. Zurab Konstantinoviç bir əfsanədir. Onun rəssam qrupu Moskvada çox möhtəşəm layihələr həyata keçirib. 1980-cı ildə onun qrupunda çalışmağa başladım. Mozaika ilə məşğul idim. İlk sınağım Gənc Modası Mərkəzinin binası oldu. Çox bəyəndilər. Moskva Komsomol Komitəsinin mükafatını aldım. Sonra yeni dövlət sifarişləri, yeni uğurlar, beləliklə mən Moskvaya bağlandım.

***- Çox maraqlıdır, siz əslində həyatınızın qısa bir dönəmini Azərbaycanda yaşamısız, yaradıcılıqla əsasən Rusiyada, Avropada məşğul olmusunuz, amma yeni əsərlərinizdə belə güclü milli kolorit var. Bunun izahı nədir?***

- Bu qan yaddaşıdır. Ən dünyəvi sayılan yaradıcı insana diqqət edin, onun əsərlərində mütləq mənsub olduğu millətdən nələrsə var. Bayaq unutdum, ən böyük şanslardan biri dahi Səttar Bəhlulzadənin ustadım olmasıdı. O, gerçəkdən xalqın rəssamı idi. Onun sənətinin dili Azərbaycan dilidir. Allah rəhmət eləsin. Doğma atam rəhmətə gedəndə mən ağlamamışdım, amma Səttar dünyasını dəyişəndə ağladım. O fövqəlinsan idi. Məni ilk dəfə Bakıdan kənara Səttar Bəhlulzadə aparıb.

***- Rəsm necə yaranır? Öncə təxəyyüldə, yoxsa gözün də görməsi şərtdir? Məsələn, məkanın sizin üçün önəmi var? Siz harada daha rahat işləyə bilirsiz?***

- Heç yerdə. Mən özümü bu maddi dünyanın adamı saymıram. Bu dünya maddidir, zorakıdır, qəddardır. Mənim öz dünyam var. Gözlərin görə bilmədikləri maraqlıdır. Bunu izoterika da adlandırmaq olar, paralel dünya da, necə istəsəz. Vatikanda sərgim açılmazdan öncə İncili oxumağa başlamışdım. Bir ara fikrim İsa Məsihin "itirdiyi" illərdə qalmışdı. İncildə onun bir 14 yaşına qədərki həyatı var, bir də 28 yaşından sonrakı həyatı - yəni peyğəmbərlik dönəmi. Bəs, bu 14 ildə o, hardaydı? Bu sual mənə rahatlıq vermirdi. Çox araşdırdım, axırda belə bir informasiya tapdım ki, həmin 14 ili Məsih Doğuda - Tibetdə və Hindistanda keçirib. Artıq elm də bunu sübut edib, Vatikan da qəbul edib. Hətta onun Kəşmirdə dəfn edilməsi ilə bağlı fikirlər var. Ora zəvvarlar da axışır. Bunları ona görə deyirəm ki, sizə mənim maraq dairəm aydın olsun - bugünkü dünya mənə maraqsızdır. Mən maraq dairəmin yaratdığı dünyada özümü rahat hiss edirəm.

***- Tibetdə olmusunuz?***

- 2 dəfə Hindistanda olmuşam. Indi üçüncü və daha ciddi səfərimə hazırlaşıram. Himalayın ətəklərini gəzəcəm, Nepala gedəcəm.

***- Siz də küsmüsüz? Ümumiyyətlə Azərbaycandan köçməyinizdə bu küsməyin payı nə qədərdir?***

- Əlbəttə, olub. Sərgilər vaxtı məni o qədər küsdürüblər ki. Düz 3 dəfə əsərlərim respublika səviyyəli sərgilər üçün seçilib, amma ən son gün siyahıdan çıxarıb yerimə vəzifədə olan birinin qohumunun çəkdiklərini qoyublar. Bir dəfə təşkilatçılardan birinin əsərimi ayağı ilə itələdiyini gördüm. Birində isə lap ağır zərbə aldım. Saat 16-da sərgi açılır, saat 12-dir, son tamamlama işləri gedir, əsərlər asılıb, hər şey yerli-yerində, mən bütün dostlarımı dəvət etmişəm, həyəcanlıyam, birdən komissiyanın üzvlərindən biri deyir - bu əsərlərə ehtiyac yoxdu, çıxarın ekspozisiyadan. Bütün bunlar insanda sərhədsiz bir təəssüf yaradır. Yaradıcı insanlar üçün belə sındırılmaq cəhdinin nə demək olduğunu anlamaq çətin deyil. Amma mənim iç dünyamda qəzəb yoxdur. Tanıyanlar bilir, heç zaman maddiyyata bağlılığım olmayıb. İnsan münasibətlərini heç bir məbləğin qarşılığında almaq olmur. Bütün yaxşı hissləri də, əlində olanları da təmmənnasız paylaşmağı bacarmalıdır insan. Təmənna gözləməyəndə daha yüksək şəkildə mükafatlandırılırsan. Insanlar sənin qapını xeyir qapısı kimi tanıyanda sanki ilahi bir mühafizə altında olursan. Mənfi münasibət görəndə intiqam haqqında düşünməyə ehtiyac yoxdur. Yüksəlmək, yüksəlmək, yüksəlmək lazımdı. Azərbaycandan getmək səbəblərim sırasında bu da var, təbii. Ən sıradan gənclər müsabiqəsinə yolu bağlanan gənc rəssamın özünü daha geniş auditoriyalarda təsdiq eləməkdən başqa yolu qalmır.

***- İndi Azərbaycanın mədəniyyət mühiti ilə yaxın təmaslarınız varmı? Yenə istedadlar sıxışdırılır?***

- Var, təbii. İndi sənət birliklərinə istənilən adam daxil ola bilər. Istedada o qədər də ehtiyac yoxdur. Rəhbərlikdəki şəxslərlə normal münasibətlər olsa, yaşıl işıq yanacaq. Yaradıcı birliklərdə ciddi devalvasiya gedib. Tək rəssamlıqda belə deyil ki. Ədəbiyyat, bəstəkarlıq, jurnalistika ilə bağlı birliklərdə də durum eynidir. Bizim dönəmdə yaradıcı birliklərin üzvü olmaq prestij sayılırdı. Ayrıca tibb xidmətimiz, istirahət məkanlarımız, mükafatlar vardı, dövlət sifarişləri alırdıq. Personal sərgi bir dəfə olurdu. Bu yaradıcı insan üçün böyük yaradıcılıq imtahanı və uğuru sayılırdı. İndi Bakıda da, Moskvada da, elə hər yerdə sənət məktəbinin 2-ci kursunda oxuyan tələbə pulu, yuxarılarla normal münasibəti varsa, şəhərin ən sayılan məkanında sərgi keçirə bilər. Bütün bunlar sənətin dəyərini öldürür... Gənclər indi yeni "izm"lər yaradırlar, kompüter "siçan"ı ilə nələrsə çəkirlər. Rəsm təxəyyüldən barmaqlarla maddi dünyaya süzülməlidir. Bu enerji bağı olmadan hansı sənət yaratmaq olar, mən bilmirəm.




***- İndi nə çəkirsiz?***

- Əsas yaradıcılığım Azərbaycan, Bakı - Abşeron və türkçülük üzərindədir. İndi daha geniş coğrafiyaya - Avrasiyaya keçməyə hazırlaşıram. Mənim dünya görüşümə Çingiz Aytmatov çox güclü təsir edib. Biz onunla uzun illər ailəvi dostuq etdik. Miqyaslı, planetar düşüncə tərzini o mənə aşılayıb. Azərbaycan türk dünyasının bir parçası olduğu üçün türklük düşüncəsindən kənarda ola bilməz. Bizim dahi rəssamların əsərlərinə diqqətlə baxanda onların hamısının türk düşüncə tərzinin məhsulu olduğu ortaya çıxır. Hətta ana dilində yaxşı danışa bilməyənlərin əsərlərində də bu kodlar var.

***- Dil, xüsusən incəsənət xadimlərinin ana dilində danışa bilməməsi ağrılı yerimizdir. Yeri gəlmişkən, hər zaman məni bir sual düşündürüb - niyə məşhur rəssamların çoxu Bakıdandır. Siz bu sualın cavabını bilirsiz?***

- Mən də bilmirəm. Söyləmək çətindir.

***- Tez-tez gəlirsiz Bakıya?***

- Hər il bağ mövsümünü Bakıda, Şüvəlanda oluram. Mənim köklərim Şüvəlana, Qalaya bağlıdır. Babam Ələşrəf yaşlı qalalıların yadındadı. O, Qalada məktəb, hamam tikdirib.

***- Torpağı sanı yaşayasız. Əşrəf bəy, sizi Avropada diaspor işinin veteranlarından sayırlar. Hətta buna görə Bakı sizi "Tərəqqi medalı" ilə mükafatlandırıb. Amma biz bu diaspor işini deyəsən, uğurlu qura bilmirik. Ölkədən kənara çıxanda görürük ki, Azərbaycanı tanımırlar, bizi sevməyənlərin təbliğatı ilə tamam yanlış informasiya formalaşıb haqqımızda. Səbəb nədi sizcə?***

- Çünki kənarda yaşayanlarımızın çoxu manqurtlardur, yəni vətənsiz, tarixi yaddaşı olmayan insanlar. Onlar xaricə ancaq maddiyyət, rahat həyat dalınca qaçıblar. Ona görə də heç bir işin qulpundan yapışmırlar. Sonda da biz informasiya savaşını uduzuruq. 1995-də biz Almaniyaya, Koblentsə köçdük. 97-ci ildə "Bakı" cəmiyyətini yaratdım. Bütün Almaniyadan 60 nəfər topladım. Öz maliyyəmlə bir neçə tədbir keçirdim, müxtəlif icmalar arasında Azərbaycanı tanıtmaq üçün broşürlara qədər çap etdirdim. Sonra işimizi davam etdirmək, bir qədər də genişləndirmək üçün özümüzünkülərə müraciət etdim - 1 avro da verən olmadı. Nürünberqdə 11 imkanlı soydaşımız yaşayırdı. Onları dəyirmi masaya topladım, təkliflər verdim, hamısı söz verdi ki, biz bu işin arxasındayıq. Koblentsə qayıtdım, hamısı qeybə çəkildi. Dəyişmək lazımdır...

***- Almaniya əsrlərdir dünyanın mədəniyyət mərkəzlərindəndir. Siz fərqli mədəniyyətin daşıyıcısısınız. Almaniya mədəni mühiti sizi necə qəbul elədi?***

- Yaxşı olmasaydı, mən bu qədər zamanı orda yaşamazdım hər halda. Almaniya möhtəşəmdir. Yaradıcı insanlar üçün çox uğurlu məkandır. Toplum sənətə dəyər verir, sənətkarı qiymətləndirir. 60 illiyimi Berlin Senatı keçirib. Bu, bizim keçmiş səfirimiz Pərviz Şahbazov təşəbbüsü ilə baş tutmuşdu. Senatda sərgim açıldı, yubiley mərasimi keçirildi, siyasət, sənət dünyasının tanınmışları gəldilər, gözəl çıxışlar oldu. Bu Berlin Senatı yaranandan o binada keçirilən ilk sərgi idi. Ardınca gözəl kataloq hazırlandı. 65 yaşım isə Naxçıvanda keçirilib.

***- Təzadlı marşrutdu - Almaniyadan Naxçıvana.***

- Naxçıvanda şəxsi qonaq idim. Naxçıvanın təbiəti təkrarsızdır. Ola bilər perspektivdə yalnız Naxçıvan peyzajlarından ibarət sərgi keçirim. Mistik məkandır. Kosmik peyzajlar gördüm orada.

***- Koblentsdə nəhəng bir divar rəsminiz olduğunu bilirəm. O hekayə də maraqlıdır...***

- Koblentsə yeni köçmüşdük. Şəhər rəhbərliyinə təklif verdim ki, hədiyyə olaraq bir divarı başdan-başa çəkə bilərəm. Onlar da 180 metr uzunluqda 450 kvadratmetrlik bir divar təklif etdilər. Razılaşdım. Adətən belə işləri briqadalar görür. Tək işlədim. Hər gün 10 metri çəkirdim, təxminən. Əsərin adını "Reynland Pfaltsın simfoniyası" qoydum. 6 ay çalışdım, 250 çətin kompazisiya yaratdım, "Ginnesin rekordlar kitabı"na düşdüm. Almaniyanın 11 qəzeti haqqımda geniş məqalələr yazdı. Açılışı şəhər meriyası böyük bayram kimi keçirdi. Açıq havada musiqilər, rəqslər... Gözəl bir tədbir oldu.

***- Əsərdə Bakı, Azərbaycan var?***

- Onsuz olmaz ki... Qız qalası da var, tar da var.

***- Sizi orda necə təqdim edirlər? Azərbaycanın əməkdar rəssamı Əşrəf Heybətov?***

- (Gülür) Yox, Avropada fəxri ad anlayışı yoxdur. Xalq rəssamı, əməkdar rəssam-filan bunlar oralar üçün deyil. Orada ən kiminsə rəssam, ya yazar, şair, bəstəçi adlandırılması ən böyük addır. Mən axı, portret də çəkirəm. Yazar, Nobel mükafatının sahibi Günter Qrasın portretini işləmişəm. Onu bütün dünya tanıyır. Amma Almaniyada onun adının önünə "ünlü yazar", "xalq yazıçısı" ifadələrinin artırılmasına ehtiyac duyulmur. Sadəcə yazar. Mən də sadəcə rəssamam.

**❑ Aygün MURADXANLI**
**Moskva-Bakı**

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017




# Tanınmışlardan kimlər İslam Oyunlarını izləyəcək?

Məlum olduğu kimi, may ayının 12-dən 22-dək Bakıda IV İslam Həmrəylik Oyunları keçiriləcək. Beləliklə, Oyunlara artıq sayılı günlər qalıb. Maraqlıdır, görəsən tanınmışlardan kimlər bu yarışı izləməyə qatılacaq?

**"Yeni Müsavat" bununla bağlı bir neçə tanınmış şəxs arasında sorğu keçirib. Xalq yazıçısı Anar sorğumuza bu cür cavab verdi: "Mən idmançı deyiləm. Amma tamaşaçı kimi dəvət olunsam, gedəcəyəm".**

Ümid Partiyasının sədri İqbal Ağazadə qeyd etdi ki, böyük ehtimalla yarışları izləyəcək: "Çünki mən daha çox futbol oyunlarına maraq göstərirəm".

QAT sədri Akif Nağı isə yarışları izləyəcəyini bildirdi: "İdman yarışlarına marağımız var. Hesab edirik ki, İslam Oyunlarının keçirilməsi yerinə düşür. Bununla bağlı "İslam həmrəyliyi və Qarabağ" mövzusunda tədbirimiz oldu. İlboyu yenə də olacaq və bizim mövqeyimizə uyğundur. İslam ölkələriniz bir araya gəlməsi, Azərbaycanın buna təşəbbüs etməsi çox müsbət haldır. Buna görə də imkan daxilində yarışları izləyəcəm".

Əməkdar incəsənət xadimi, tanınmış kinorejissor Ayaz Salayev də yarışları izləməyəcəyini dedi. Səbəbini isə bu cür qeyd etdi: "Mənim idman yarışlarından heç başım çıxmır. Yeni idman pərəstişkarı olmadığımdan yarışlara baxanda heç nə başa düşmürəm. Mən ömrümdə bir dəfə olsun belə heç bir idman yarışında, heç futbolda da olmamışam".

Avropa.info saytının rəhbəri Ruslan Beşirli izləyəcəyi yarışları açıqladı: "Ölkəmizdə belə dünya miqyaslı tədbirlərin keçirilməsi müsbət haldır. Bu, həm də ölkəmizin beynəlxalq miqyasda tanınması baxımından əhəmiyyətlidir. Mən İslam oyunlarının məhz Azərbaycanda keçirilməsini müsbət hadisə hesab edirəm. İslam oyunlarını izləməyə gəlincə, mən futbolu izləməyi xoşlayıram. Yəqin ki, İslam Oyunları zamanı vaxt tapıb bir neçə maraqlı matçı izləməyə gedəcəm. İlk növbədə böyük ehtimalla Azərbaycanın 21 yaşlılardan ibarət futbol millisinin və Türkiyə millisinin matçlarını izləməyə çalışacam".

Əməkdar artist, müğənni Nüşabə Ələsgərli isə oyunları televiziya ekranlarından izləyəcəyini dedi: "Mən həmişə idman oyunlarına marağım olub. Əsrlərdir ki, alimlər, ictimaiyyət bildirir ki, idman həmişə xeyirlidir, sağlamlıqdır. Nə qədər gənc idmana cəlb olunsa, pis vərdişlərdən uzaq qalar, onlara meylləri olmaz. Mən əsasən televiziya ekranlarından izləyəcəm. Özünüz bilirsiz ki, ailəmdə bir-birinin ardınca ağır itkilər oldu. O əhval-ruhiyyədə deyiləm ki, yarışları idman salonlarından izləyim. Amma əhval-ruhiyyəm yaxşı olsaydı, əlbəttə ki, bilet alıb yarışları yaxından, canlı olaraq izləyərdim. Məsələn, bundan əvvəl Avropa Oyunlarını izləməyə getmişdim. Amma indi məlum səbəblərdən yarışlara və digər yerlərə getmirəm".

❑ Xalidə GƏRAY



# Azərbaycanlı gömrük zabiti katolik keşişi olacaq

**Azərbaycan katolikləri tezliklə Azərbaycan müsəlman ailəsindən tarixdə birinci keşiş əldə edəcəklər. Virtualaz.org bildirir ki, bu barədə "Sibir katolik qəzeti" xəbər yayıb.**

Xəbərdə bildirilir ki, Roma Papası Fransısk bazar günü, mayın 7-də Sankt-Peterburqdakı "Məryəm - Həvarilərin Məlikəsi" seminariyasının məzunu Behbud Mustafayevi başqa seminariya tələbələrinin arasında keşiş təyin edəcək. Behbud pontifiklə şəxsən tanışdır, 2016-cı ilin oktyabrında Papa Bakıda apostol səfərində olarkən ona dyakon kimi qulluq göstərib.

Behbud Mustafayev 1982-ci il martın 13-də Azərbaycanda anadan olub və burada böyüyüb. Azərbaycan Milli Aviasiya Akademiyasının məzunudur. Azərbaycan Respublikası Gömrük Komitəsində zabit olaraq çalışıb. 2008-ci ildə Bakıda Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi kilsəsində xaç suyuna çəkilib. 2011-ci ildə Sankt-Peterburqdakı "Məryəm - Həvarilərin Məlikəsi" seminariyasına qəbul olunmuşdu.

B.Mustafayev Roma-Katolik kilsəsi tarixində katolik din xadimi olan ilk azərbaycanlıdır.

# TV-lərdə evlilik proqramları lazımdırmı?

## Ekspertlər izdivac verilişlərinin əleyhinə deyillər, ancaq...

**Bu günlərdə Türkiyə televiziyalarında efirə verilən evlilik proqramları yasaqlanıb. Bu barədə ölkənin Radio-Televizyon Üst Qurumu qərar verib. Qərar rəsmi qəzetdə açıqlanıb.**

Türkiyə mətbuatında yayılan məlumata görə, televiziyalarda nümayiş etdirilən evlilik proqramlarının gənc nəslin təlim-tərbiyəsinə mənfi təsiri barədə RTÜK-ə saysız-hesabsız şikayətlər daxil olub və bu uzun müddətdir ki, müzakirə olunurdu. Hətta bildirilirdi ki, bu cür verilişlər əslində qurama, şou olub, iştirakçılar isə sadəcə rol oynayırmış. Bu haqda dəfələrlə mətbuatda tənqidi materiallar dərc olunurdu.

Onu da vurğulayaq ki, Türkiyədəki evlilik proqramlarına çoxsaylı azərbaycanlı namizədlər də qatılırdı. Onların arasında xalq artisti Rafael Dadaşovun keçmiş xanımı, aktrisa Sədaqət Dadaşova da var idi.

Xatırladaq ki, bir neçə il öncə Azərbaycanda da bu cür evlilik proqramları yayımlanıb. Bunlar - ATV kanalında Zaur Baxşəliyevin aparıcılığı ilə yayımlanan "Onun yarısı" və bağlanmış ANS kanalında Elgiz Əkbərlə Ulvira Qarayevanın aparıcılıq etdiyi



"Toy olsun" proqramları idi. Adı çəkilən verilişlər yayımlandığı andan həm ictimaiyyətdə geniş müzakirələrə səbəb olmuşdu. Həm ekspertlər, həm də ictimaiyyətin ayrı-ayrı nümayəndələri bu kimi verilişlərin cəmiyyətimizin parametrlərinə uyğun gəlmədiyini, milli-adət ənənələrimizə yad olduğunu bildirir, etiraz edirdilər.

Türkiyə və Rusiya kanallarında yayımlanan proqramlarında olduğu kimi ölkəmizdəki izdivac proqramlarında da hər gün evlənmək istəyən oğlan və qızlar, hətta yaşlı insanlar canlı yayıma çıxır, özlərinə uyğun adam axtardıqlarını bildirirdilər. Əvvəlcə telefonla, daha sonra pərdənin arxasından özlərini tanıdıb xasiyyətlərini bildirir, uyğun gəldikdə evlənirdilər. Lakin yayılan şayiələrə görə bu üsulla evlənən cütlüklərin böyük əksəriyyəti heç bir ay keçməmiş ayrılırmışlar.

Beləliklə, verilişlərə qarşı əvvəlcə sosial şəbəkələrdə, daha sonra isə ziyalılar, alimlər, ekspertlər səviyyəsində sərt ittihamlar səslənməyə başladı. Nəticədə ölkəmizdə yayımlanan hər iki izdivac proqramı bağlanıldı. Lakin bu proqramların bağlanılmasına qarşı gələnlər də oldu. Bəziləri qeyd edirdi ki, bu proqramlar vasitəsi ilə tənha insanlar birləşir, həyatını yenidən qurmaqda çətinlik çəkənlərə kömək edirdi.

Maraqlıdır, bu cür izdivac proqramları cəmiyyətə lazımdırmı? Sosioloq Əhməd Qəşəmoğlu izdivac proqramlarının bağlanmasına müsbət yanaşdığını qeyd etdi: "Bu cür ideyaların özü pis deyil, amma hansı şəkildə Azərbaycanda, Türkiyədə hazırlanırdı, doğrudan da tənqid olunası idi. Mən bu cür proqramların bağlanmasına müsbət baxıram. Çünki bir dəfə mən ekspert də olaraq, təhlil baxımından bu verilişlərə baxdım ki, nə cürdür. Hiss olunurdu ki, bir neçəsindən şou düzəldilirdi, insanları əsabləşdirirdilər. Digər tərəfdən də hər kəs bilirdi ki, ora bazar deyildi, sanki bazara təzə mal çıxarıblar və alıcı axtarırlar. Yəni bu cür şoularla, münasibət qurmaqla qurulacaq ailələrin az bir faizi xoşbəxt ola bilər. Onun əvəzində bəlkə də dediyim kimi, cəmiyyətdə belə bir tələbat, ehtiyac varsa bu barədə başqa şəkildə işlər görülməlidir. Məsələn, hansısa klublar olmalıdır, orada məşğələlər keçirilməli, müxtəlif insanları bura cəlb etməlidirlər. Birbaşa özü gələcəkdə ailə quracağı insanı tapa bilməyən şəxslərin bu cür klublarda, mərasimlərdə tanış olması fikrimcə daha effektli ola bilər. Nəinki, kimisə ora çıxardıb qoyurlar, sanki bazar münasibətləri ilə ona müştəri axtarırlar. Bu baxımdan həmin proqramların bağlanılmasını normal qarşılayıram".

Psixoloq Vəfa Rəşidova isə evlilik proqramlarının əhəmiyyətindən danışdı: "Ən önəmli məqam odur ki, hər insan rahatlıqla ailə qura bilmir. Bunun yaxşı tərəflərini də düşünmək lazımdır. Doğrudur, evlilik proqramlarında ifrata varan məqamlar var idi, insanlar bundan sui-istifadə, başqa şəkildə istifadə etməyə çalışırdı. Lakin insanlar var ki, onların evlənməsi rahat şəkildə olmaya bilər. Kimsə münasibət, ailə həyatı qurmağa çətinlik çəkir. Beləliklə də bu cür izdivac proqramları hansısa insanlara bir istiqamət verə bilmişdi. Bu da fərddən asılıdır. Bir məqam da var ki, tamaşaçı həmin evlilik proqramına hansı tərəfdən yanaşır, hansı nümunəni götürür, bu da fərdi məsələdir. Mən demirəm k, izdivac proqramları olmalıdır, amma əleyhinə də deyiləm. Bəzi gənclər hansısa seriala baxıb oradan elə bir gözəl nümunələr götürürlər ki, amma bəzisi də oradakı ən neqativ nümunələri götürməyə çalışırlar. Evlilik proqramları da bu cürdür. Evindən əyləşib evlilik proqramına baxan insan əgər məntiqli, dərrakəli insandırsa, oradan yaxşı nümunə götürəcək. Amma elə insan var ki, yalnız neqativ nümunələri götürür, sonra da bunun səbəbini proqramların üstünə atır. Heç bir proqram insan təsir edə bilməz, əgər insanın iradəsi möhkəmdirsə. Qeyd edim ki, evlilik proqramlarında xeyli sayda yaşlı insan ailə həyatı qurub və indiyə qədər də xoşbəxtdirlər, ailəlidirlər. Onlar doğru seçim edib, doğru istiqamət alıb, nəticəsi də yaxşı olub. Amma insan var ki, evlilik proqramına gedib konsert çıxardır, etmədikləri qalmırdı. Bir daha qeyd edirəm ki, bu məsələ fərdin dəyərlərinə, xarakterinə bağlıdır".

❑ Xalidə GƏRAY

# Yoqa - ruh, bədən və ağılın birgə olduğu təlim...

## Səid İsmayılzadə: "Yoqa emosiyaları idarə etmək üçün çox yaxşı vasitədir"

**Son vaxtlar Azərbaycanda da yoqa təlimləri ilə məşğul olanların sayı artmağa başlayıb. Xüsusən də sənət adamlarının bu təlimə böyük maraq göstərdiyinin şahidi oluruq. Ümumiyyətlə isə gərgin iş rejimində fəaliyyət göstərən müxtəlif təbəqəli insanlar yoqa ilə məşğul olmağa çalışır. Çünki yoqa insanda özünə inam, fiziki sağlamlıq yaradır, əsəbdən, gərginlikdən qurtulmağa əhəmiyyətli təsir göstərə bilir. Bəzən yoqanı insanın qurtuluşunu ruhun təkamülündə görən qədim fəlsəfi sistem adlandırırlar.**





Qeyd edək ki, yoqa ənənəvi Asiya sisteminə əsaslanan fiziki tapşırıqların sırasıdır. Yoqanın ən aydın, şəffaf mənası onun etmoloji mənşəyində saxlanılır. Yoqa sözü sanskrit dilində "yuj" sözündən götürülüb, mənası "birlik", "ittifaq" deməkdir. Yoqa təlimi bugünkü elmə təsir etmiş ən güclü mistik cərəyandır və bugünkü alimlər mistikanı, fövqəltəbii qabiliyyətləri analiz etmək üçün ən çox hind yoqları üzərində təcrübə, müşahidə aparırlar. Demək olar ki, fövqəltəbii qüvvələrin sirrini bugünkü günə qədər yaşadan yeganə mistik təriqətdir...

Paytaxt Bakının bir çox məkanlarında yoqa təlimləri keçirilir. Bu cür təlimlər keçənlərdən biri də Səid İsmayılzadədir. Təlimçi ilə görüşüb yoqanın sirləri, paytaxt sakinlərinin bu təlimlərə olan marağını öyrənməyə çalışdıq. Onunla görüşümüz yoqa ilə bağlı keçirdiyi kiçik konsertə təsadüf etdi.

Səid İsmayılzadənin sözlərinə görə, artıq 6 ildir ki, bu təlimlərlə məşğuldur: "2011-ci ildən yoqa ilə məşğul oluram. Təlimlər həm insanın özünə, həm də ətrafına qarşı münasibəti dəyişir. Eyni zamanda insanın öz həyatına, arzularına, vaxtına olan münasibəti dəyişir. Beləliklə yoqa emosiyaları idarə etmək üçün çox yaxşı vasitədir. Hirsi, paxıl emosiyalarını Yoqa ilə məşğul olub aradan qaldırmaq olur. Əgər sən əvvəllər hansısa hadisəyə müəyyən bir reaksiya verirdinsə, təlimlərdən sonra artıq məsələyə münasibətin dəyişir".

Təlimçinin sözlərinə görə bunun insana təsiri fərd olaraq dəyişir. Kimisi bu təsiri 1 ilə, kimisi 5 aya görə bilir.

Təlimçi yoqanın müxtəlif növlərindən söz açdı:

"Kriy, Hatha, Raca, Bakti və digər yoqa növləri var. Onlardan bəzisi bədənlə, bəzi isə məhz ruhi baxımdan işləyir. Eləsi də var ki, qarışıqdır. Ölkəmizdə isə daha çox Hatha, fiziki bədənlə işləməyi nəzərdə tutan yoqaya maraq çoxdur. Yəni bu növ yoqadan istifadə edənlər əksəriyyət təşkil edir. Deməzdim ki, kifayət qədər də inkişaf edir, amma çoxlu sayda bu təlimlə məşğul olan var. Bir qisim insanlar var, istəyirlər ki, mənəvi cəhətdən inkişaf etsinlər. Amma onların sayı çox deyil".

S.İsmayılzadənin sözlərinə görə, daha çox qadınlar Yoqa ilə məşğul olmağa həvəs göstərir.

Qeyd edək ki, Səid İsmayılzadə yoqa ustası olmaqla yanaşı, həm də peşəkar musiqiçidir. O, öz təlimlərində skripkanın müşayiəti ilə canlı ifalardan istifadə edir. Mütəxəssislər qeyd edir ki, yoqaya aid müəyyən musiqilər insanın hipofizinə yaxşı təsir edir, beyində olan pozitiv dalğalar və sakitlik yaradır. Bunlar isə mediativ dalğalar, mediativ melodiyalar adlanır.



Təlimçinin sözlərinə görə, yoqa musiqiləri daha çox, ruhla, mənəviyyatla bağlı, hansısa münasibətlərdən bəhs etməyən musiqilərdir: "Mən özüm yoqa ilə bağlı bir neçə mahnı yazmışam. Ümumiyyətlə isə mahnı yazmağım yoqa ilə məşğul olmağımla bağlı oldu. Təlimlərdən sonra bir neçə mahnılar yazdım. Bir haşiyəyə çıxaraq qeyd edim ki, Yoqa ilə məşğul olmaq daxilimizdə olan imkanları üzə çıxarmaq üçün çox yaxşı vasitədir. Məsələn, mən musiqiçiyəm, amma heç vaxt musiqi yazmırdım. Yoqa ilə məşğul olduqdan sonra fikirləşdim ki, yaza bilərəm.

Mahnılarda hər bir alətin öz təsiri var. Xüsusi seçilmiş musiqi insanı bir qədər də rahatlada, təcrübələndirə bilər. Amma bu da individualdır. Yoqa Hindistandan gəldiyindən musiqisində də daha çox hind alətlərindən istifadə edilir. Amma bu şərt deyil. Burda əsas olan ahəngdir. Əgər daxildən hiss etdiyin musiqi ilə ifa olunan musiqi uyğun gəlirsə, bu, çox böyük təsir yarada bilir".

Təlimçi Yoqanın fiziki təsirindən də danışdı: "Deyə bilərəm ki, yoqa yüz faiz əsəb sisteminə çox yaxşı təsir edir. İkinci endokrin sisteminə, harmonlara təsir edir, bədən əzələləri, qırtlaqlar daha estetik olur.

Yoqa ilə məşğul olanda hiss edirsən ki, bəzi hərəkətləri artıq edə bilirsən, bədən açılmağa başlayır. Ümumiyyətlə bədənə də qulluq etmək lazımdır".

Təlimçi bildirdi ki, düzgün edilməmiş yoqa fəsadlara da gətirib çıxara bilər: "Əgər düzgün duruşa keçməsən və yaxud duruşdan düzgün çıxmasan, ya bir müddət sonra, ya da anındaca insanda hansısa fəsadlara yol aça bilir".

Təlimlərin qiymətlərinə gəldikdə isə, təlimçi qeyd etdi ki, paytaxtda çoxlu sayda yoqa məktəbləri var və hər biri özünə məxsus qiymətlər təklif edir. Amma istənilən halda böyüklər və uşaqlar üçün ödəniş hər yerdə fərqlidir.

Artıq 1 ildir ki, yoqa ilə məşğul olan İnci Taşan da əməkdaşımızla söhbətində bu təlimlərə gəlməyinin səbəblərindən danışdı: "Mən arxitektor, müəlliməyəm. Yoqa ilə 3 il idi ki, məşğul olmaq istəyirdim, amma vaxt tapa bilmirdim. Yoqa mənə çox yaxındır. Bu təlimdə həm ağıl, ruh, bədən bir yerdə olduğu üçün başqa yerə getmək istəmədim və yoqa ilə məşğul olmağa başladım. Yoqa təlimlərinin arzusunda olan insanlara demək istəyirəm ki, çox fikirləşməsinlər, vaxt itirmək lazım deyil. Bir dəfə yoxlamaq və başlamaq lazımdır. Onsuz da sonra davamlı olacaq. Mən bundan əvvəl müxtəlif təlimlərə başladım, məsələn, rəqs dərsləri keçdim, amma sonra yarımçıq qoydum. İdmanın bir çox növləri ilə məşğul oldum. Amma bir tək yoqa oldu ki, onu buraxmadım".

❑ **Xalidə GƏRAY**
**Fotolar müəllifindir**


**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- ✳ **Diaqnozu bilinməyən ağır hallar;**
- ✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- ✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- ✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- ✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- ✳ **Sidikdə və ya spermada qan;**
- ✳ **Spermanın azalması və itməsi;**
- ✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- ✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- ✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- ✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- ✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- ✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- ✳ **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- ✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.


# Bakıda vəzifəli şəxs yeyib-içdikdən sonra dostunu öldürdü

**Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin vəzifəli şəxsi adam öldürüb. Qafqazinfo xəbər verir ki, Zabrat qəsəbəsində yerləşən Vertolyot Meydançasının rəisi Faiq Qasımov dünən gecə saatlarında öz dostunu öldürüb.**

Belə ki, F.Qasımov yaxın dostu, Qoşa Qala restoranının sahibi Tərlanla axşam toy məclisində yeyib-içiblər. Sonra isə dostlar əyləncə məclisini Fatmayi kəndində dəniz kənarında davam etdiriblər. Hələlik açıqlanmayan səbəbdən F.Qasımov avtomobolini dostu Tərlanın üzərinə sürüb və ona ağır xəsarət yetirib. Xəstəxanaya yerləşdirilən iş adamı vəfat edib. Rəis F.Qasımov dünən səhər saatlarında saxlanılıb. Bildirilir ki, hadisə Binəqədi qəsəbəsində yerləşən "Həyat" istirahət mərkəzində baş verib.

YENİ MÜSAVAT
N 91 (6705) 1 may 2017

# Bakıda dəbdəbəli başdaşı qoyduranların sayı azalıb

## Kənan Rövşənoğlu: "Çox dəbdəbəli qəbirlər, başdaşları israf olduğu üçün haram sayılır"

**Avropa ölkələrində qəbiristanlıqlara girərkən orada varlı və ya kasıb qəbrini ayırd etmək mümkün olmur. Çünki bütün qəbiristanlıqlarda məzarlar standartdır. Yəni heç bir qəbir bir-birindən böyük başdaşına, heykəlinə görə fərqlənmir. Avropa ölkələrində, eyni zamanda qonşu Türkiyədə vəfat edənin adı, soyadı, doğum və ölüm tarixi yazılmaq şərtilə mərhuma kiçik başdaşı qoyulur.**



Çox təəssüf ki, Azərbaycan üçün bunu demək çətindir. İstər paytaxtda? istərsə də bölgələrdə hansı qəbiristanlığa getsək, ən azından 3-4 qəbrin şəkilli, uca başdaşı, şeir yazılmış sinə daşları, qəbirlərin üzərində tikilmiş nəhəng sərdabələrlə fərləndiyini görərik. Hətta elə qəbiristanlıqlar var ki, oranın bir hissəsini satın alaraq ailə qəbir yeri kimi hasarlayıb, bəzəyib. Bunu baş çəkdiyimiz bir neçə qəbiristanlıqda müşahidə etdik.

Yasamal qəbiristanlığında da bir birindən fərqlənən, hətta iki nəhəng baş daşı və sərdabəsi olan qəbrin arasında sadə bir qəbrin heç görünmədiyini də müşahidə etdik. Çox təəssüf ki, dəbdəbəli qəbirlərə görə bəzən insanlar öz yaxınlarını gedib ziyarət etmək üçün cığır belə tapa bilmir. Yasamal qəbiristanlığında olarkən söhbətləşdiyimiz və adını demək istəməyən molla da bu cür bahalı baş daşlarının ölü üçün bir önəm kəsb etmədiyini deyirdi. Molla həmçinin artıq insanların bu cür dəbdəbəli baş daşlarına meyl etmədiyini də dedi.

Bu günlərdə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov nümunəvi qəbiristanlıqların yaradılacağı ilə bağlı yaxın günlərdə ya ölkə Prezidentinin sərəncam verəcəyini, ya da sənədin qanun layihəsi şəklində Milli Məclisdə müzakirəyə çıxarılacağını deyib. "Bu sənəddə müxtəlif məsələlər nəzərdə tutulur. Sənədə görə, böyük yerlərdə qəbiristanlıqlar dövlətin balansında olacaq. Müəyyən yerlərdə isə, məsələn, kəndlərdə, bələdiyyələrin balansına verilməsi nəzərdə tutulur. Sənəd tam hazırdır, bütün yerlərdən də rəylər alınıb"-deyə deputat qeyd edib. Siyavuş Novruzovun sözlərinə görə, sənəddə göstərilir ki, qəbiristanlıqlar, məzar yerləri, başdaşları hər yerdə eyni cür və eyni qiymətə olmalıdır.

Baş daşlarının eyni cür və eyni qiymətə olacağı məsələsi ilə bağlı qəbiristanlıqdan bir az aralıda yerləşən baş daşı düzəldilən sexə də baş çəkdik. Baş daşı düzəldən Səxavət Alışov baş daşlarının qiymətinin eyni olacağına sevinmədiyini dedi və bunun onların qazancına istər-istəməz təsir edəcəyini bildirdi: "Hər bir sənətin çətinliyi var. Bizim də işimiz asan deyil və biz işimizi təyin etdiyimiz məbləğlə qiymətləndiririk. Baş daşlarının qiyməti fərqlidir. Bir var adi daşdan, bir də var ki, mərmərdən olan baş daşları. Elə baş daşları var ki, onun üzərinə yalnız ölünün kiçik bir rəsmi çəkilir, doğum və ölüm tarixi qeyd edilir. Elə baş daşı sifariş edənlər də olur ki, baş daşının hər iki tərəfində ölmüş şəxsin portret və düz ayaq üstə şəklinin çəkilməsini istəyir. Həmçinin sinə daşında da hansısa bir uzun şeir. Bütün bunlar qiymətlərə təsir edir. Çünki onların hər birinin əziyyəti var".





Baş daşı ustası artıq dəbdəbəli qəbir daşı sifariş edənlərin azaldığını dedi: "İndi çox adam artıq sadə başdaşlarına üstünlük verir. Bu da təbii ki, bizim qazancımıza təsir edir. Hələ belə bir şey eşitmişik ki, bütün qəbiristanlıqlar standart olacaq. Bu bizim işimizə çətinlik törədəcək, qazancımız aşağı düşəcək. Düzdür, bu yaxşı haldır, ancaq bizim üçün yox".

Qeyd edək ki, əksər ölkələrdə qəbiristanlıqlarda yer pulsuz olaraq bələdiyyələr tərəfindən verilir. Təmizliyinə isə bir qurum nəzarət edir. Paytaxtda qəbir yerlərinin qiymətləri qəbiristanlıqların yerləşdiyi ərazilərə görə də dəyişir.

Mia.az şəhərin müxtəlif yerlərində olan qəbir qiymətlərinin aşağıdakı kimi olduğunu qeyd edir: Biləcəri qəbiristanlığı - 400-500 AZN, Xırdalan qəbiristanlığı - 800-1500 AZN, Badamdar qəbiristanlığı - 800-2000 AZN, Günəşli qəbiristanlığı - 600-1500 AZN, Qaraçuxur qəbiristanlığı - 200-1000 AZN, Qurd qapısı qəbiristanlığı - 2000-3000 AZN, Hövsan qəbiristanlığı - 150-300 AZN.

Qeyd edək ki, İslam dininə görə, əslində qəbir müəyyən müddətdən sonra itməli, diqqət çəkməməlidir. Yəni ölü üçün qoyulan heykəllərin, bahalı baş daşlarının, sərdabələrin əslində ölü üçün heç bir savabı və ya xeyri yoxdur.

Dini ekspert Kənan Rövşənoğlu dəbdəbəli başdaşlarının haram sayıldığını dedi: "İslam dininə görə qəbir müəyyən zaman sonra itməlidir. Çox dəbdəbəli qəbirlər, başdaşları israf olduğu üçün haram sayılır. Bunun nə ölüyə, nə də qohumlarına heç bir xeyri yoxdur. Bizdə daha çox qonşudan dala qalma prinsipi ilə edilir. Ölümü xatırlamaq üçün özünə qəbir qazdıranlar kifayət qədərdir. Bunun bir növ dəbə çevrilməsi və böyük məbləğdə xərc çəkilməsi günahdır. İslam dinində ən böyük günahlardan sayılır. Gərək müsəlmanın qəbiri sadə olsun, digərlərindən fərqlənməsin və zamanla itsin. Şeyxlər olub ki, sağlığında qəbir yeri götürərək arada gedib baş çəkirmiş. Qəbiristanlığa bir növ ibrət yeri kimi baxırmışlar".

Qəbir yerlərinin satılması məsələsinə gəlincə isə, ekspert qəbir yerlərinə görə pul alınmasının İslam dinində olmadığını dedi: "Qəbiristanlıqlar adətən vəqf yerləri olur. Bu səbəbdən də bir qaydada olaraq qəbir yerləri satılmır. Təbii ki, orda xidmət və cüzi işlərə görə pul toplanması istisnadır. Amma ümumilikdə qəbir yerlərinə görə pul alınması müsəlman ənənələrində olmayıb. Bu, yalnız son yüz ildə daha çox böyük şəhərlərlə ortaya çıxmış məsələdir".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**





# Hollivud ulduzu olan agent aktrisanın xəyanətlə sınanan həyatı

**4 may 1929-cu ildə dünyaya göz açan aktrisa Audrey Hepburnun həyatı olduqca maraqlı və ağır olub. Onun atası ingilis, anası isə holland idi. Atası İngiltərənin məşhur və zəngin bank sahiblərindən biri idi. Həyatının böyük hissəsi boşanıb-evlənməklə keçən aktrisanın həyata dirənişi də olduqca maraqlıdır. Musavat.com Hollivudun məşhur aktrisası olmuş Audrey haqqında maraqlı faktları təqdim edir.**

Onun atası zamanının çox hissəsini ölkə xaricində keçirsə də, evdə olduğu vaxtlarda da anası ilə mübahisə edərdi. Evdəki davalardan uzaqlaşmaq istəyən Audreyin gün keçdikcə içinə qapandığını hiss edən anası, itirdiyi özgüvənini bərpa etməsi üçün onu Londona internat məktəbinə yollayıb. 1935-ci ildə atası ailəni tərk edib. Audrey bundan çox sarsılıb. Psixologiyası pozulan Audreyin tək çıxış yolu balet (Bədii gimnastika) idi. Çünki balet onun sevdiyi idman növlərindən biri, hətta birincisi idi. İllər keçsə də o, atasının onları tərk etməsini qəbul edə bilmirdi.

İkinci Dünya müharibəsi başlayan zaman anası ilə birlikdə Hollandiyaya köçdülər. Ancaq Almaniya ordusu Hollandiyanı da işğal etdi. Bu müddətdə Audrey, "Hollandiya Müqavimət Təşkilatı" üçün işləməyə başladı. İlk aktyorluq qabiliyyətini təşkilat üçün gizli mesajlar daşıyan bir agent olaraq sərgilədi. Müharibə bitdikdən sonra Londona yenə balet məktəbində dərslərini davam etmək üçün yola düşdü. Rəqs qabiliyyətini müharibə zamanı itirdiyinin fərqinə varan Audrey yaxşı bir balerina olmayacağını anladı. Bu vəziyyət onda məyusluq yaratdı. O, teatrda səhnələrdə rol alaraq aktrisalıq etməyə başladı. Ən böyük səhnəsini Londonda "GİGİ" müsiqili teatrında aldı. Oynadığı rol ilə bütün dünyanın diqqətini üzərinə çəkdi. Ardından Hollivuddan Audreyə "Roman Holiday" adlı film üçün təklif gəldi. Bir şahzadəni canlandırdığı "Roman Holiday" filmində ilk dəfə baş rolda oynayırdı və oynadığı bu film sayəsində ilin ən yaxşı aktrisası mükafatını qazandı.

Audrey Hollivudun film dünyasına sürətlə və təsirli bir giriş etdi. Qısa zamanda Hollivudun ən tanınan aktrisalarından oldu. Eyni zamanda Audreyin ilk eşq həyatı da elə səhnə yoldaşı Villiam Holdenlə başladı. Həmişə evlənib övlad sahibi olmağı arzu edən Audrey Holdenin xəstə olduğunu, uşaq sahibi olmayacağını bilən kimi ondan ayrıldı. 1953-cü ildə rejissor Mel Ferrer ilə tanış oldu. Səhhətində yaranan problemlərdən dolayı həkimlər aktirasının bir müddət səhnədən uzaqlaşmasını tələb etdi. Bundan sonra yeni sevgilisi ilə bağ evinə köçən Audrey elə orada da onunla evləndi. Nəhayət, arzusu gerçək oldu. 1960-cı ildə övlad sahibi oldu. Lakin bu evlilik çox sürmədi. 1967-ci ildə həyat yoldaşı ilə münasibətləri pozuldu və boşandılar. 1968-ci ildə Audrey yenidən aşiq oldu. İtalyan bir psixoloqla münasibətini heç kim yaxşı qarşılamasa da, onlar 1969-cu ildə evləndilər. Bu, artıq onun 3-cü sevgilisi və ikinci evliliyi idi. Bir il sonra ikinci həyat yoldaşından da övlad sahibi olan Audrey xoşbəxt idi. Lakin bu evlilik də uzun sürmədi. Buna səbəb isə onun həyat yoldaşının onu başqa qadınlarla aldatması idi. Audrey 1982-ci ildə onunla da boşandı.

Yaşadığı uğursuz evliliklərdən sonra bir daha evlənməyə tərəddüd edən, həmişə gerçək eşqi axtaran Audrey sonunda onu tapmışdı: Robert Wolders! Robert də eynilə onun kimi çətin həyat yaşamış, müharibə zamanlarında bir neçə ölkə dəyişmişdi. Ona görə də onlar bir-birini anlaya bilirdi. Müharibədə yaşadığı ağır günləri unutmayan Audrey Hollivuddan ayrılıb, ikinci bir kariyerini qurmağa başladı. UNİCEF üzvü olan Audrey həyatının son beş ilində köməyə ehtiyacı olan insanların həyatını xilas etməklə məşğul oldu.

Audrey 20 yanvar 1993-cü ildə bağırsaq xərçəngi xəstəliyindən vəfat etdi. Lakin aradan illər keçməsinə baxmayaraq, dünyanın bir çox qadınları onun yaşadıqlarından ilham alır. Çünki o, yaşadığı sıxıntılara baxmayaraq, güclü qala bilməyi bacarmışdı.

❑ **Turan Oruc,**
**Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 91 (6705) 1 may 2017

# Aqressiv kişilər çox xəstələnir

**Alimlər iddia edirlər ki, əsəbi, yorğun və aqressiv kişilər ürək-damar xəstəliklərinə daha çox tutula bilərlər. Güclü emosional-psixi gərginlik müxtəlif xəstəliklərin yaranmasına səbəb ola bilir.**

10 il ətraf mühitə nifrət və depressiya kişilərdə immun sistemə ziyan vurur ki, bu da onlarda ürək xəstəliklərinə səbəb olur. Dyuk adına ABŞ Universitetinin alimləri aşkarlayıblar ki, mənfi emosiyalar ikinci qrup şəkər xəstəliyinin yaranmasına səbəb ola bilər. Hirsli, əsəbi və aqressiv kişilərdə C3 zülalın miqdarı artır ki, bu da xroniki immun sisteminin zəifliyinə gətirib çıxarda bilir.



Tibb işçiləri Vyetnam müharibəsində iştirak etmiş 313 veteranın 10 illik sağlamlığını müşahidə ediblər. Qan nümunələrinə baxılmış, psixoloji testlər aparılıb, C3 və C4 zülalların miqdarı müşahidə olunub. Daha çox nifrət və depressiya hissləri keçirən kişilərdə C3 zülalı 7,1% artırmış. Bu artım öz növbəsində bu kişilərdə ürək sağlamlığına mənfi təsir göstərib.



## Marafonda finişə dördayaqlı qaçdı

**London marafonundakı qorilla kostyumundakı iştirakçı finişə dördayaqlı halda çatıb. Lenta.ru saytı xəbər verir ki, o, marafonun bitməsi ilə bağlı videotranslyasiyanı twitter hesabından yayımlayıb. Sonuncu metrləri kişi oğlanlarının, habelə bəzənmiş meymunların müşayiəti ilə yekunlaşdırıb. Finiş xəttində onu onlarla insan, habelə məşhur britaniyalı naturalist, komik və teleaparıcı Bill Oddi qarşılayıb. "Associated Press"in xəbərinə görə, Britaniya polisinin nümayəndəsi olan Tom Harrison Mister Qorilla ləqəbi ilə çıxış edib. O, 23 apreldə digər iştirakçılarla birgə çıxış edib.**

Digərlərindən fərqli olaraq, o, qaçmır, əksinə, dörd ayaqları üzərində irəliləyirdi. Bu, onun sürətini əhəmiyyətli dərəcədə azaldırdı. Kişi iddia edib ki, dördayaq üzərində sürünmək daha çətindir, nəinki qaçmaq: "Bizim orqanizmimiz buna hesablanmayıb".

Bu aksiyanın səbəbi isə Gorilla Organization adlı xeyriyyə təşkilatına toplmaqdan ibarət olub. Sözügedən təşkilat nadir növ olan afrikan qorillalarının hüquqlarını müdafiə edir. Məhz Harrisonun cədhdləri sayəsində bu yarışmadan sonra fonda 22 min funt sterlinq yığılıb.

# Çaxır artıq çəkiyə necə təsir edir?



**Amerika alimləri belə bir qənaətə gəliblər ki, çaxır qadınları artıq çəkidən qoruyur. Sən demə, çaxırda çox sayda kalori olmasına baxmayaraq, ondan ağılla içmək qadın fiqurasını gözəlləşdirir. Alimlər son 13 il ərzində çaxırın qadın metabolizminə təsirini öyrənməyə çalışıblar.**

Araşdırmalarda 19.220 amerikalı qadın iştirak edib. Çaxırdan ağılla istifadə edən qadınların çəkisi mineral su və hətta suya üstünlük verənlərdən fərqli olaraq gec artır. Alimlər hesab edir ki, alkoqolun tərkibindəki kalori digər maddələrdə olan kalorilərdən fərqli olaraq çəkiyə az təsir edir. Lakin bunun səbəbi hələlik aydınlaşdırılmayıb.

Belə bir ehtimal var: müntəzəm olaraq alkoqoldan istifadə edən insanın qaraciyəri maddələr mübadiləsi üçün əlavə fəallıq göstərir, artıq enerjini yağa yox, istiliyə çevirir.

13 il davam etmiş eksperiment gedişində araşdırmalarda iştirak etmiş qadınların 38 faizi içkiyə olan münasibətləri barədə danışıblar və öz çəkilərini qeyd ediblər. Qadın fiqurasına daha yaxşı təsir edən isə qırmızı çaxır olub. Pivə və daha sərt içkilər isə çəkinin maksimum artmasına gətirib çıxarıb. Lakin alimlər hesab edir ki, çaxırdan istifadə edərkən ölçünü gözləmək lazımdır. İfrat dərəcədə aludəçilik təkcə çəkiyə deyil, həm də sağlamlığa ziyandır.

## Qoroskop




**QOÇ - Yeni ayın bu ilk günü əsasən fərdi yaradıcılığınız üçün uğurlu olacaq. Həmkarlarınızla aranızda mövcud olan gərginlik qismən səngiyəcək. Səhhətinizin də qayğısına qalın.**

**BUĞA - Bürcünüz üçün aktiv olan bu təqvimdə hansısa ciddi problemlə rastlaşma ehtimalınız yoxdur. Əksinə, uğurlu nəticələrdən xəbər verən çoxsaylı görüş və sövdələşmələrdə iştirakınız baş verəcək.**

**ƏKİZLƏR - Yaxın on gün ərzində üzərinizə düşən vəzifələri indidən planlaşdırın. İştirakçısı olduğunuz hər bir sövdələşmədə qarşı tərəfin rəyini nəzərə alın. İnadkarlıq sizə başucalığı gətirən deyil.**

**XƏRÇƏNG - Göstərdiyimiz zaman kəsiyində yeni işlərə başlamaq və sizə aid olmayan münasibət məsələlərinə müdaxilə etmək xoşagəlməz sonluqla nəticələnə bilər. Qazanmaq ehtimalınız böyükdür.**

**ŞİR - Qarşınızda olduqca məsuliyyətli bir dövr durur. Biznes sahəsində və münasibətlərdə proseslər ürəyinizcə olacaq. Amma xətakar və yalançı adamların şirin dilinə aldanmayın.**

**QIZ - Yaramaz adamlardan uzaq olun. Çünki sizə qarşı pislik etmək istəyənlər çoxdur. Hər hansı mübahisə və prinsipiallıq isə sizin üçün deyil. Boş məsrəflərə çox pul xərcləməyin.**

**TƏRƏZİ - Təzə ayın bu ilk təqvimi sizin üçün kifayət qədər uğurlu olacaq. Xırda maliyyə problemlərini nəzərə almasaq, digər sahələrdə cərəyan edən situasiyalar zövqünüzlə uyğunlaşacaq.**

**ƏQRƏB - Təxminən saat 12-yə qədər ümumi əhvalınızda gərginlik müşahidə ediləcək. Sonrakı saatlarda isə daxili sabitliyiniz bərpa olunacaq. Əsas vaxtınızı istirahətə həsr edin.**

**OXATAN - Gün ərzində bütün işlərdə bacardığınız qədər məsuliyyətli olmalısınız. Əks təqdirdə nəzərdə tutduğunuz planları reallaşdırmaqda problemləriniz olacaq. Səfərə hazırlaşmağa dəyər.**

**OĞLAQ - Sağlamlığınızı qorusanız, başqa probleminiz olmayacaq. Sıxıntı çəkməkdənsə dəniz sahilində, kənd yerində dincəlin. Amma lazımsız yerlərə pul xərcləmək fikrinə düşməyin.**

**SUTÖKƏN - Günün birinci yarısını nəzərə almasaq, qalan saatlar bürcünüz üçün düşərli olacaq. Yeni simalarla rastlaşmağınız, işgüzar proseslərdə dəstək almağınız gərginliyinizi azaldacaq.**

**BALIQLAR - Fəaliyyət zəminində xırda irəliləyişlərdən başqa hansısa mütərəqqi uğurlara yiyələnməyəcəksiniz. Qohumluq-qonşuluq münasibətlərində humanistlik göstərin. Savab qazanmağa çalışın.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qışda qadınların başına bunlar gəlir



**İndiana Universitetinin mütəxəssiləri maraqlı araşdırma edib. Araşdırma göstərib ki, qışda qadınlar daha aqressiv olurlar. Buna səbəb isə günlərin qısalması göstərilir.**

Xamyaklar üzərində aparılan araşdırma göstərib ki, qadınlar hormonal mexanizmi onların aqressivliyini şərtləndirən əsas amildir. Kişi orqanizmində isə aqressiya başqa mexanizmlə idarə olunur. Bioloq Nikki Rendonun fikrincə, bu araşdırma gələcək tədqiqatlar üçün baza rolunu oynayacaq. Belə ki, qadın orqanizmində sutkanın qaranlıq zamanında melatonin artır, sutkanın işıqlı zamanlarında isə azalır. Bu isə qadınların davranışını şərtləndirir.

"Cinsi hormonlar qadın və kişilərdə aqressiya üzərində nəzarətin təmin edilməsində mühüm rol oynayır", - deyə bioloq vurğulayıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "B-Z" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100